# ƏHLİ SÜNNƏ VƏL CƏMAATIN ƏQİDƏSİ

**MUHƏMMƏD B. SALEH ƏL-USEYMİN**

بسم الله الرحمن الرحيم

Türkcədən çevirən

**İsbarxanlı Ramin**

Redaktə edən

**K. Hüseyn**

**İSRA**

**BAKI 2005**

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

إنَّ الحَمْدَ لله ، نَحْمَدُهُ ونَسْتَعِينُهُ ونَسْتَغْفِرُهُ، ونَعوذُ بالله منْ شُرورِ أنفُسنا ، ومَنْ سيِّئاتِ أعمالنا ، مَن يَهدِهِ اللهُ فلا مُضِلَّ لهُ ، ومَن يُضلِل فلاَ هاديَ لَهُ ، وأشهدُ أنْ لاَ إلهَ إلاَّ اللهُ وَحدَهُ لاَ شَرِيكَ لَهُ ، وأَشْهَدُ أنَّ مُحمَّداً عَبْدُهُ ورَسُولُهُ.

﴿ يا أيُّها الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ حَقَّ تُقاتِهِ ولاَ تَموتُنَّ إلاَّ وأنتُم مُسْلِمون ﴾[1].

﴿ يا أيُّها النَّاسُ اتَّقُوا ربَّكُمُ الَّذي خَلَقَكُم مِّن نَفْسٍ واحِدَةٍ وخَلَقَ مِنْها زَوجَها وبَثَّ مِنهُما رِجَالاً كَثِيراً ونِسَاءً واتَّقُوا اللهَ الَّذي تَساءَلُونَ بِهِ والأَرْحامَ إنَّ اللهَ كانَ عَلَيكُم رَقِيباً ﴾[2].

﴿ يَا أيُّها الَّذينَ آمَنُوا اتَّقُوا اللهَ وقُولُوا قَولاً سَدِيداً ، يُصلِحْ لَكُمْ أعمالَكُمْ ويَغفِرْ لَكُمْ ذُنُوبَكُم ومَن يُطعِ اللهَ ورَسُولَهُ فَقَدْ فَازَ فَوْزاً عَظِيماً ﴾[3]

أما بعد : فإنَّ أَصْدَقَ الحديثِ كلامُ الله ، وخَيرَ الهَدي هَديُ مُحَمَّدٍ – صلىٰ الله عليه وآله وسلم – وشرَّ الأُمورِ مُحْدَثاتُها وكلَّ مُحْدَثَةٍ بِدعةٌ ، وكلَّ بدعةٍ ضلالةٌ ، وكلَّ ضلالةٍ في النَّار[*].

---

(١) سورة آل عمران : الآية ، ١٠٢. (٢) سورة النساء : الآية ، ١. (٣) سورة الأحزاب : الآية ، ٧١.

(*) هذه الخطبة ؛ تسمىٰ : «خطبة الحاجة» وهي تُشرع بين يدي كلّ حاجة ، والتي كان رسول الله ﷺ يعلّمها أصحابه ؛ أن يقولوها بين يدي كلامهم ، في أمور دينهم سواء كان ؛ خطبة نكاح ، أو جمعة ، أو محاضرة ، أو غير ذلك ، وهي في : «سنن ابن ماجه» كتاب النكاح ، باب خطبة النكاح ، وفي : «سنن الترمذي» و «سنن أبي داود» و «سنن النسائي» ورواه أبو يعلىٰ في : «مسنده» والطبراني في : «المعجم الكبير» والبيهقي في : «سننه» والإمام أحمد في : «المسند» ، وورد ذكر طرف من هذه الخطبة في : «صحيح مسلم» كتاب الجمعة ، باب خطبته ﷺ في الجمعة.

# ÖN SÖZ

***XUTBƏTUL-HACƏ***

Həmd ancaq Allahadır, Ona həmd edir, Ondan yardım və məğfirət diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən Allaha sığınırıq. Allah kimi hidayətə yönəltmişsə, onu heç kəs azdıra bilməz, kimi də azdırmışsa, heç kəs onu hidayətə yönəldə bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur, O, təkdir, şəriki də yoxdur və şəhadət edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

***“ ətirənlər! Allahdan lazımınca qorxun. Yalnız müsəlman olduğunuz halda ölün”.*** *(Ali İmran 102).*

***“ ək bir şəxsdən*** *(Adəmdən)* ***xəlq edən, ondan zövcəsini*** *(Həvvanı)* ***yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun.*** *(Adı ilə)* ***Bir-birinizdən*** *(cürbəcür şeylər)* ***istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən qorxun. Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir”.*** *(ən-Nisa 1).*

***“ ətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!*** *(Əgər belə etsəniz)* ***Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə*** *(Cənnətə)* ***nail olar”.*** *(əl-Əhzab 70-71)*[1].

Şübhəsiz ki, sözlərin ən doğrusu Allahın kəlamı, yolların ən xeyirlisi Muhəmməd – *sallallahu aleyhi və səlləm* – in yoludur. Əməllərin ən pisi sonradan uydurulanlardır. Sonradan uydurulub dinə salınan hər bir əməl (iş) bir bidət, hər bir bidət isə zəlalətdir (sapıqlıqdır), hər bir (sapıqlıq) isə oddadır

---

[1] ***XUTBƏTUL-HACƏ*** adı ilə məşhur olan bu duanı, cümə və s. Xütbələrdə Peyğəmbər oxumuşdu. Səhabələrinə də bunu əmr etmiş və özü də onları öyrətmişdir. Hədisin ilk hissəsini bizə: Əhməd 1/392,293,432, Əbu Davud 2188, Tirmizi 1105, Nəsəi 3/104,105, 6/69, və “Əməlil Yəum vəl Leyl” 488, İbn Məcə 1892, Darimi 2202, Tayalisi “Musnəd” 1557, AbdurRazzaq “Musənnəf” 10449, Bəzzar “Musnəd” – “Kəşful Əstar 1/314, Əbu Yəla “Musnəd” 5233,5234,5257, Tahavi “Şərhul Muşkilil Asar” 1-3, Təbərani “Məmuul Kəbir” 10/10079, Həkim “Mustədrək” 2744, Beyhəqi “Sunnənul Kubra” 3/214,215, Bəğavi “Şərhus Sunnə” 2268 İbn Məsud – *radıyallahu anhu* - yolu ilə, Muslim “Şərhu Nəvəvi” Əhməd 1/302,350, Nəsəi 6/89,90, İbn Məcə 1893 və Tahavi “Şərhul Muşkilil Asar” 4 – İbn Abbas – *radıyallahu anhu* - yolu ilə, Təhavi “Şərhul Muşkilil Asar” 5, Beyhəqi “Sunnənul Kubra” 3/215 – Nubeyt b. Şərit – *radıyallahu anhu* - yolu ilə, Əbu Yəla “Musnəd” 7221, Nəsəi “Sunnənul Kubra” bax: “Tuhfetul Əşraf” 6/472 H. 9148 – Əbu Musa əl-Əşari yolu ilə.

[2] ***HƏDISIN IKINCI HISSƏSINI*** – Muslim “Şərhu Nəvəvi” 6/153-156, Əhməd 3/319, 371, Nəsəi 3/188,189, Beyhəqi “Sunnənul Kubra” 3/214, - Cabir b. Abdullah – *ı* yolu ilə. Bu ləfz Nəsainin ləfsizid. Hədisi Əhməd 3/371 və Muslim “Sözlərin ən doğrusu” ləfzi yerinə: “Sözlərin ən xeyirlisi” ləfsiylə rəvayət etmişdir. İmam Əhmədin digər rəvayətlərində 3/319 – “Sözlərin ən gözəli” şəkilindədir. üslim: “Sonradan uydurulub dinə salınan hər bir əməl (iş) bidətdir”ləfsi yerinə: “Hər bir bidət bir zəlalətdir (sapıqlıqdır)” ləfsiylə rəvayət edilmişdir. Bu beş səhabədən başqa hədisi: Aişə – *rahmətullahi aleyhi* - əhl b. Sad – *rahmətullahi aleyhi* - mərfu olaraq. Hədis səhihdir. Muhəddis Muhəmməd Nəsrəddin əl-Albani – *rahmətullahi aleyhi* - hədisin bütün rəvayətlərini bir

“ *əbbim! Köksümü açıb genişlət, işimi yüngülləşdir, dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar”.* (Ta ha 25-28).

öhtərəm müsəlman bacı və qardaşlarım! İlk öncə hamınızı Allahın salamı ilə salamlayıram. Allahın Kitabı Rəsulullah in yoluna uyaraq öz risaləmi “**Bismilləh**” ilə başlayıram. Çünki Allah Rəsulu – *sallallahu aleyhi və səlləm* – də öz məktublarını “**Bismilləh**” ilə başlamış və buyurmuşdu: “Hər mühüm bir işə “**Bismilləh**” ilə başlanılmazsa o, işin sonu kəsikdir”

AbdulƏziz b. Baz – *rahmətullahi aleyhi* - nin müqəddiməsindən sonra bizim burada bir şeylər söyləməyimizə əsla yer qalmır. Sadəcə həmd olsun aləmlərin Rəbbi olan Allaha! Həmd olsun ki, Onun izni və rəhmətilə qardaşımız Saleh əl-Useymin – *rahmətullahi aleyhi* - nin “Əhli Sünnə Vəl Cəmaatın əqidəsi” ilə bağlı bu dəyərli kitabı tərcümə edib başa çatdıra bildik.

İlk növbədə Allahdan bu çalışmamın dolğun, düzgün şəkildə tərcümə edib başa çatdırılmasını diləyirəm. Allahdan əməlimi onun üçün ixlaslı olmasını, məndən qəbul edib onunla müsəlmanları faydalandırmasını diləyirəm. Əgər hardasa xəta etmişəmsə bu nəfsimdən və şeytandandır. Burda düzəldilməzi mühüm olan yerləri tapdıqdan sonra mənə öyüd-nəsihət verməkdən çəkinməyəcəyinizi ümid edirəm.

üvəndiyim Allahdır, işlərimi Ona həvalə edirəm və Ona arxalanıram. Həmd və nemət yalnız Onadır. Müvəfəqiyyət bəxş edən və xətalardan qoruyan odur. ***“Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də, içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O, şəfa verir. Məni öldürəcək, sonra dirildəcək də Odur və Qiyamət günü xətamı bağışlayacağına umid etdiyim də Odur! Ey Rəbbim! Mənə hikmət bəxş et və məni salehlərə qovuşdur! Sonra gələnlər arasında mənə yaxşı ad qismət et! Məni Nəim Cənnətlərinin varislərindən et!”.*** (əş-Şüəra 78-85).

ın salat və salamı Onun Peyğəmbəri Muhəmməd – *sallallahu aleyhi və səlləm* – ə, onun ailə üzvlərinə, səhabələrinə və Qiyamətə qədər onun yolu ilə gedən saleh möminlərin üzərinə olsun!

***Bitirdim: Hicri 1426 - cı il 21 Ramazan***
***Miladi 2005 - ci il 24 Oktyabr***
***əmd olsun aləmlərin Rəbbi olan Allaha.***

---

yerə toplayaraq “Xutbətul Həcə” isimli bir kitab yazmışdır. İstəyənlər bu kitaba baxa bilərlər. Ayrıca bax: əl-Albani “Muxtəsər Səhih Muslim” 409, “Mişkətul Məsabih”

[3] Əbu Davud.

[4] Azərbaycan dilinə tərcümə olunmuş bu əsərin əsası kimi istifadə olunmuşdur: “Biz Böyle İnanıyoruz” Quraba yayınları, çevri: Muhəmməd Şahin 2003, “Əsli Sünnətin İman Əsasları” UmmulQura, çevri: Necmi Sarı 2005.

# BİSMİLLƏHİR RAHMƏNİR RAHİM

## MÜQƏDDİMƏ

Həmd Allaha məxsusdur. Ondan sonra peyğəmbər gəlməyəcək Muhəmmədə, ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

Fəzilətli qardaşımız Muhəmməd b. Saleh əl-Useyminin topladığı, Əhli Sünnə[5] vəl Cəməanın əqidəsini əhatə edən - Allahın təkliyinə, ad və sifətlərinə, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə, qəza və qədərin xeyir və şərinə iman şərtlərini özündə birləşdirən qiymətli əsərini nəzərdən keçirdim.

Müəllif bu əsərində Əhli Sünnə vəl Cəməanın əqidəsini topladıqda çox gözəl üslubdan istifadə edərək Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə, qəza və qədərin xeyir və şərinə iman mövzusunda elm tələbəsinin və kişili-qadınlı hər bir müsəlmanın ehtiyac duyduğu şeyləri qeyd etmişdir. Həmçinin buraya əqidə mövzusunda yazılmış bir çox kitablarda tapılmayan bəzi faydaları da əlavə etmişdir.

Allah onu mükafatlandırsın, elmini və hidayətini artırsın! Bu və başqa mövzularda yazdığı kitablarını müsəlmanlar üçün faydalı etsin! Bizi, onu və digər müsəlmanları doğru yola yönəldən və faydalı elmə sahib olub Allahın dininə dəvət edənlərdən etsin!

Şübhəsiz ki, O layiqincə eşidən (qullarının duasına cavab vermək üçün onlara) yaxın olandır.

Peyğəmbərimiz Muhəmmədə, ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

***Allahın əffinə möhtac:***
***AbdulƏziz b. Abdullah b. Baz***
***- Allah onu bağışlasın -***

[5] ***SÜNNƏ*** - Peyğəmbərin *səllallahu aleyhi və alihi və səlləm* getdiyi yol.

# ÖN SÖZ

Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur. Gözəl, xeyirli aqibət (Cənnət) Allahdan layiqincə qorxan müttəqilərindir. Zalımlara isə düşmənçilik və ədavətdən başqa heç nə qalan deyil. Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq haqq məbud[6] yoxdur. O, təkdir və şəriksizdir, və şəhadət edirəm ki, Muhəmməd *salləllahu aleyhi və alihi və səlləm*[7] Allahın qulu və elçisi, peyğəmbərlərin sonuncusu və müttəqilərin imamıdır. Ona, ailəsinə, səhabələrinə və Qiyamətə qədər onlara ən gözəl şəkildə tabe olanlara Allahın salavatı və salamı olsun!

Şübhəsiz ki, Allah *subhənəhu və təalə* Elçisi Muhəmmədi *salləllahu aleyhi və alihi və səlləm* aləmlərə rəhmət, möminlərə gözəl bir nümunə və bütün bəndələrinə hüccət/dəlil olması üçün hidayət və haqq din ilə göndərmişdir.

Bəndələrinin xeyrinə olan hər bir şeyi, onların dini və dünyəvi işlərini nizamlamaq, səhih əqidəyə, sağlam əməllərə, gözəl əxlaqa və yüksək ədəb-ərkana sahib olmalarını təmin etmək üçün Allah *subhənəhu və təalə* Muhəmmədə *salləllahu aleyhi və alihi və səlləm* endirdiyi Qurani Kərim və hikməti vasitəsilə bütün bunları aydınlaşdırmışdır.

Muhəmməd *salləllahu aleyhi və alihi və səlləm* ümmətinə gecəsi gündüzü kimi aydın bir yol olan İslam dinini qoyub getmişdir. Bu yoldan ancaq özünü həlak edən uzaqlaşar.[8]

Allah və Rəsulunun *salləllahu aleyhi və alihi və səlləm* çağırışını qəbul edən səhabə[9], tabiin[10] və onlara ən gözəl şəkildə tabe olan ümməti də bu haqq yolda getmişlər; əqidə, ibadət, əxlaq və tərbiyə cəhətindən şəriəti tətbiq edərək onun sünnəsinə sıx şəkildə bağlanmışlar. Beləliklə də onlara düşmənçilik edən və müxalif olanların onlara heç bir zərər verə bilməyəcək, Allahın əmri gəlib qiyamət qopana qədər bu haqq yolda olan tayfa sadəcə onlar olacaqlar.[11]

Biz, Allaha şükürlər olsun ki, onların yolunda olan, onlar kimi Quran və Sünnə ilə hidayətə/doğru yola gələn, bunu Allahın üzərimizdəki bir

---

[6] ***MƏBUD*** - ibadətə layiq, ibadət olunan.

[7] Ona və ailəsinə Allahın salavatı və salamı olsun.

[8] Sünnədə (hədis kitablarında) olan dəlillər üçün baxın: Əhməd 4/126; İbn Macə 43; Hakim 331; İbn Əbi Asim «əs-Sünnə» 48, 49.

[9] ***SƏHABƏ*** – Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* sağ ikən onunla görüşüb, dediklərinə iman gətirmiş və müsəlman olaraq vəfat etmiş şəxsə deyilir.

[10] ***TABİİN*** - Səhabələrin ardıcılları.

[11] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 4/101, 244, 248, 252; Buxari 3640, 3641, 7311, 7312, 7459, 7460; Muslim 1920, 1921; Tirmizi 2230; İbn Macə 10.

nemәti olaraq bilәn vә hәr möminin belә olmasının vacibliyinә inananlarıq.

Allaha bizi, müsәlman qardaş vә bacılarımızı dünya vә axirәtdә «***LƏ İLƏHƏ İLLƏLLAH***» kәlimәsi ilә sabit etmәsini vә (Onun) bizә mәrhәmәt ehsan etmәsini dilәyirik!

Bu mövzunun vacibliyi, insanların bu mövzuda bir çox fikir ayrılıqlarına düşmәlәri sәbәbi ilә Allaha, mәlәklәrinә, kitablarına, peyğәmbәrlәrinә, axirәt gününә, qәdәrin xeyir vә şәrinә iman olan Əhli Sünnә vәl-Cәmәa әqidәmizi xüsusi olaraq qәlәmә almağı münasib gördüm.

Allaha, bu әmәyimi Kәrim olan üzünә vә rizasına uyğun, qullarına da faydalı etmәsini dilәyirәm.

***Muhәmmәd bin Saleh әl-Useymin***

# ƏQİDƏMİZ

Əqidəmiz,

Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə, qədərin xeyirinə və şərinə iman etməkdir.

Biz,

Allahın Rübubiyyətinə - yəni Onun yeganə Rəbb və Yaradan, kainatdakı hər şeyin sahibi, hər şeyi nizama salan və idarə edən olduğuna iman edirik.

Biz,

Allahın Uluhiyyətinə - yəni Onun haqq ilah olduğuna və Ondan başqa ibadət edilən bütün ilahların batil olduğuna iman edirik.

Biz,

Allahın ad və sifətlərinə - yəni Onun gözəl adlara, uca və kamil sifətlərə sahib olduğuna iman edirik.

Biz,

Allahın bütün bu məsələlərdə, yəni vahidliyində, Rəbb olmasında, yeganə ilah olmasında, ad və sifətlərində heç bir şərikinin olmadığına iman edirik. Allah *subhənəhu və təalə* belə buyurur: ***«O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?» (Məryəm 65)***

Biz,

Allahın, Özünü bu ayələrdə vəsf etdiyi kimi olduğuna iman edirik: ***«Allah, Ondan başqa*** *(ibadətə layiq olan haqq)* ***məbud yoxdur,*** *(əbədi)* ***Yaşayandır,*** *(bütün yaratdıqlarının)* ***Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq*** *(şəfaət)* ***edə bilər? O,*** *(məxluqatın)* ***gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur». (Bəqərə 255).***

Biz,

Allahın, Özünü bu ayələrdə vəsf etdiyi kimi olduğuna iman edirik. ***«O, Özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı Bilən Allahdır. O, Mərhəmətlidir, Rəhmlidir. O, Özündən başqa heç bir məbud olmayan, Hökmran, Müqəddəs, Pak,*** *(haqqı)* ***təsdiq edən, hər şeyi müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. Allah onların Ona şərik qoşduqlarından ucadır. O, Xaliq, yoxdan Yaradan, Surət verən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və olanların hamısı Onun şəninə tariflər deyir. O, Qüdrətlidir, Müdrikdir». (Həşr 22 - 24)***

Biz,

Göylərdə və yerdə nə varsa, hamısının Allahın mülkü olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Göylərdə və yerdə səltənət Allahındır. O, istədiyini yaradır; kimə qız uşaqları, kimə də oğlan uşaqları bəxş edir. Yaxud hər ikisindən – oğlan və qız uşaqları verir, istədiyini də sonsuz edir. Həqiqətən, O, biləndir, Qadirdir!» (Şura 49-50)***

Biz,

Allahın, Özünü bu ayələrdə vəsf etdiyi kimi olduğuna iman edirik: ***«Onun heç bir bənzəri yoxdur. O, Eşidəndər, Görəndir. Göylərin və yerin açarları Ona məxsusdur. O, istədiyinin ruzisini bol edər,*** *(istədiyinkini də)* ***azaldar. O, hər şeyi Biləndir!». (Şura 11-12).***

Biz,

Allahın, Özünü bu ayələrdə vəsf etdiyi kimi olduğuna iman edirik: ***«Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin.*** *(Allah)* ***onların qərar tutduqları yeri də, qorunub saxlandıqları yeri də bilir. Bunların hamısı açıq-aydın Yazıdadır*** *(Lövhi-Məhfuzdadır)****». (Hud 6).***

Biz,

Allahın, Özünü bu ayələrdə vəsf etdiyi kimi olduğuna iman edirik: ***«Qeybin açarları Onun yanındadır. Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru*** *(şey)* ***yoxdur ki, açıq–aydın Yazıda*** *(Lövhi-Məhfuzda)* ***olmasın!». (Ənam 59).***

Biz,

Allahın, Özünü bu ayələrdə vəsf etdiyi kimi olduğuna iman edirik: ***«Həqiqətən, o Saat haqqında elm yalnız Allahdadır. Yağışı o yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır!». (Loğman 34).***

Biz,

Allahın istədiyi şeylə, istədiyi zaman və istədiyi şəkildə danışdığına iman edirik. Allah subhənəhu və təalə bu haqda belə buyurur: ***«Və Allah Musa ilə sözlə*** *(vasitəsiz)* ***danışdı». (Nisa 164) «Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı». (Əraf 143). «Biz*** *(Musanı)* ***sağ tərəfindəki dağın yaxınlığından çağırdıq və*** *(onunla)* ***danışıb onu*** *(özümüzə)* ***yaxın etdik». (Məryəm 52).***

Biz,

Allahın, Özünü bu ayələrdə vəsf etdiyi kimi olduğuna iman edirik: ***«De: «Əgər Rəbbimin Sözlərini yazmaq üçün dəniz mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik belə, Rəbbimin Sözləri qurtarmadan öncə dənizin*** *(suyu)* ***qurtarardı». (Kəhf 109). «Əgər yer üzündəki bütün ağaclar qələm olsaydı, dəniz də*** *(mürəkkəb olub)* ***ardından ona yeddi dəniz də qatılsaydı, yenə də Allahın Sözləri qurtarmazdı. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir». (Loğman 27)***

Biz,

Allahın kəlamlarının, xəbər verdiyi məlumatlar baxımından ən düzgün, hökmlər baxımından ən ədalətli və gözəllik baxımından ən kamil olduğuna iman edirik. Allah subhənəhu və təalə bu haqda belə buyurur: ***«Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır». (Ənam 115). «*** *(Verdiyi)* ***xəbərdə Allahdan daha doğru*** *(söyləyən)* ***kim ola bilər?». (Nisa 87).***

Biz,

Qurani Kərimin Allahın kəlamı olub, onu həqiqi olaraq danışdığına, Cəbrailə əleyhissəlam[12] öyrətdiyinə, Cəbrailin əleyhissəlam də onu Muhəmmədin salləllahu aleyhi və alihi və səlləm qəlbinə endirdiyinə/vəhy etdiyinə iman edirik. Allah subhənəhu və təalə bu haqda belə buyurur: ***«De: «Müqəddəs Ruh*** *(Cəbrail)* ***onu sənin Rəbbindən iman gətirənləri sabitqədəm etmək üçün,***

---

[12] Ona salam olsun

***həm də müsəlmanlara doğru yol göstəricisi və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir». (Nəhl 102) «Şübhəsiz ki, bu aləmlərin Rəbbindən nazil edilmişdir. Onu sadiq Ruh*** *(Cəbrail)* ***endirdi; sənin qəlbinə ki, xəbərdar edənlərdən olasan.*** *(Bu Quran)* ***açıq–aydın ərəb dilində*** *(nazil edildi)****». (Şuəra 192-195).***

Biz,

Allahın zatı və sifətləri ilə yaratdıqlarından çox uca olub onların üzərində olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«O, Ucadır, Uludur». (Bəqərə 255). «O Öz qulları üzərində mütləq hakimiyyət sahibidir. O, Müdrikdir,*** *(hər şeydən)* ***Xəbərdardır». (Ənam 18).***

Biz,

Allahın, Özünü bu ayələrdə vəsf etdiyi kimi olduğuna iman edirik: ***«Şübhəsiz ki, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. İşləri yoluna qoyan Odur». (Yunus 3).***

Allahın, Ərşə istiva etməsi Onun cəlal və əzəmətinə layiq, zatına xas olaraq Ərşin üzərinə yüksəlməsidir ki, bunun da necəliyini Allahdan başqa heç kəs bilməz.

Biz,

Allahın, Ərşin üzərində olmasına, elmi ilə bəndələrinin yanında olduğuna, [13] onların vəziyyətlərinin necə olduğunu bildiyinə, nə danışdıqlarını eşitdiyinə, nə etdiklərini gördüyünə, işlərini nizamladığına, kasıba ruzi verdiyinə, çətin vəziyyətdə olanın ehtiyacını ödədiyinə, istədiyinə mülk verdiyinə, istədiyindən də aldığına, istədiyini yüksəltdiyinə, istədiyini də zəlil etdiyinə, hər bir xeyirin Onun əlində olduğuna və Onun hər şeyə gücü çatdığına iman edirik. Bu vəsflərə sahib olan Allah *subhənəhu və təalə*, bəndələrinin üstündə Ərşinin üzərinə istiva etmiş olsa da belə, Onun elmi ilə yaratdıqlarının yanında, onlarla birlikdə olmasına mane deyildir. ***«Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir». (Şura 11).***

Cəhmiyyənin bir qolu olan Hüluliyyə və başqalarının; «Allah, yer üzündə qulları ilə birlikdədir» - dedikləri kimi, Allahın yer üzündə qulları ilə birlikdə olduğunu söyləmirik. Allaha, Ona layiq olmayan nöqsan

---

[13] Buradaki bərabərlik zatı bərabərlik olmayıb, elmilə Allah təalanın yaratdıqlarının yanında olmasına işarədir.

sifətlər aid etdiklərinə görə, bu əqidə daşıyıcısının və belə deyənin ya kafir ya da zəlalətdə olduğunu hökm edirik.

Biz,

Peyğəmbərin *salləllahu aleyhi və alihi və səlləm* Allahdan xəbər verərək buyurduğu hər bir şeyə iman edirik: ***«Hər gecə, Rəbbimiz gecənin son üçdə bir hissəsində dünya səmasına enir və belə deyir: «Mənə dua edən yoxmu, duasına cavab verim. Məndən istəyən yoxmu, istədiyini verim. Məndən bağışlanma/məğfirət diləyən yoxmu, onu bağışlayım?!»***[14]

Biz,

Allahın, Qiyamət günü bəndələri arasında hökm vermək üçün (Ərəsət meydanına) gələcəyinə[15] iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Xeyr! Elə ki yer lərzəyə gəlib parça–parça olacaq, sənin Rəbbin və səf–səf*** *(düzülmüş)* ***mələklər gələcək və o gün Cəhənnəm gətiriləcək. O gün insan*** *(günahlarını)* ***xatırlayacaqdır. Lakin*** (bu) ***xatırlamanın ona nə faydası?». (Fəcr 21-23).***

Biz,

Allahın, Özünü bu ayələrdə vəsf etdiyi kimi olduğuna iman edirik: ***«İstədiyini edəndir». (Buruc 16).***

Biz,

Allahın, iradəsinin iki növ olduğuna iman edirik.

***ÜMUMİ İRADƏ*** - Bir şeyin mütləq olaraq Allahın istəyi ilə olması deməkdir. Yəni bunu Allah istəyir və o hadisə də olur. Bu halda istək obyektinin Allah üçün sevimli olub-olmaması mühüm deyildir. Bu "***Məşiə***" istək mənasındadır. Allah *subhənəhu və təalə* belə buyurur: ***«Əgər Allah istəsəydi, onlar bir-biriləri ilə vuruşmazdılar. Lakin Allah istədiyini edir». (Bəqərə 253). «Əgər Allah sizi azdırmaq istəyirsə, mən sizə nəsihət vermək istəsəm belə nəsihətim sizə fayda verməz. O sizin Rəbbinizdir…». (Hud 34).***

***ŞƏRİ İRADƏ*** - Bir şeyin olmasını Allahın istəməsi deməkdir. Lakin bu, o şeyin mütləq olaraq baş verəcəyi demək deyildir. Allahın istədiyi -

---

[14] Buxari 1145, 6321, 7494; Muslim 758; Əbu Davud 1315, 4733; Tirmizi 446, 3498; İbn Macə 1366; Darimi 1478, 1479; Əhməd 2/264, 265, 267, 282, 419, 487, 506.

[15] Allahın ***İTYAN***/Gəliş və ***MƏCİ***/Gəlmək sifətlərinin Quranda dəlilləri çoxdur: Bəqərə 210; Ənam 158 və s. Sünnədə olan dəlillər üçün baxın: Buxari 7405, 7439; Muslim 183, 2675.

Ona xoş gələn və Onun razı olduğu şeydir. Allah *subhənəhu və təalə* belə buyurur: ***«Allah sizin tövbələrinizi qəbul etmək istəyir». (Nisa 27).***

Biz,

Allahın, ümumi və şəri iradəsinin Onun hikmətinə tabe olduğuna iman edirik. Allahın istəyib yaratdığı hər şey - istər ümumi iradəsi ilə olsun, istərsə də şəri irədəsi ilə qullarına əmr etdiyi ibadəti olsun, Onun hikmətinə bağlıdır. Hökmünün hikmətini bilsək də, bilməsək də və ya ağlımızla onu dərk etməsək də bunun belə olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Məgər Allah hakimlərin ən üstünü deyilmi?!». (Tin 8). «Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kim ola bilər?». (Maidə 50).***

Biz,

Allahın dostlarını sevdiyinə, dostlarının da Allahı sevdiyinə[16] iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«De: «Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın». (Ali İmran 31). «Allah elə tayfa gətirər ki, Özü onları, onlar da Allahı sevərlər». (Maidə 54). «Allah səbir edənləri sevir». (Ali İmran 146). «***(*Hər işdə*)* ***ədalətli davranın. Şübhəsiz ki, Allah ədalətlə davrananları sevər!». (Hucurat 9). «Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir». (Bəqərə 195).***

Biz,

Allahın əmr etdiyi söz və əməllərdən razı olub[17], qadağan etdiyi söz və əməllərdən xoşlanmadığına[18] iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Küfr etsəniz,*** *(bilin ki)*, ***Allah sizə möhtac deyildir. O, qullarının kafirlik etməsinə razı olmaz. Əgər şükür etsəniz, buna görə sizdən razı qalar». (Zumər 7). «Lakin Allah onların döyüşə getməsini istəmədi və onları saxladı. Onlara: «***(*Evdə*)* ***oturanlarla bərabər, siz də oturun!» - deyildi». (Tövbə 46).***

Biz,

Allahın, iman gətirib yaxşı işlər görənlərdən razı olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Allah onlardan***

---

[16] Allahın bu sifətlərinin Sünnədə olan dəlilləri: Buxari 3009; Muslim 2405, 2965.
[17] Allahın ***RİZA***/Razı olmaq sifətinin Sünnədə olan dəlilləri: Muslim 486; 1715.
[18] Allahın bu sifətinin Sünnədə olan dəlilləri: Buxari 2408; Muslim 12/593, 2684.

***razıdır, onlar da Ondan razıdırlar. Bu*** *(nemətlər),* ***Rəbbindən qorxan kimsələrdən ötrüdür!» (Bəyyinə 8)***

Biz,

Allahın, qəzəbini haqq edən kafirlərə qəzəbləndiyinə[19] iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: *«(Peyğəmbərə və möminlərə Allahın yardım etməyəcəyini və dinini ucaltmayacağını)* ***zənn edənlər, Allah barəsində pis bir zənn etmişlər. Onların bədniyyətliyi öz başlarında çatlasın! Allahın onlara qəzəbi tutmuş və Allah onlara lənət etmişdir». (Fəth 6). «Lakin qəlbən küfrə razı olanlara Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olarlar!». (Nəhl 106).***

Biz,

Allahın, Cəlal/əzəmət və İkramla vəsf edilmiş üzə sahib olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Ancaq Rəbbinin əzəmət və kəramətli Üzü əbədidir». (Rahmən 27).***

Biz,

Allahın, Kərəm/səxavətli və Əzəmətli iki əli olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Əksinə, Onun hər iki Əli açıqdır və O,*** *(Öz lütfündən)* ***istədiyi kimi sərf edir». (Maidə 64). «Onlar Allahı layiqincə qiymətləndirmədilər. Halbuki Qiyamət günü yer bütünlüklə Onun Ovcunda olacaq, göylər isə Onun Əli ilə bükülləcəkdir. O, pakdır, müqəddəsdir və onların*** *(Ona)* ***qoşduqları şəriklərdən ucadır». (Zumər 67).***

Biz,

Allahın, iki (həqiqi) gözü olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Gözlərimizin önündə və vəhyimiz üzrə gəmini düzəlt». (Hud 37).*** Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* də bu barədə belə buyurur: ***«Onun*** *(Allahın)* ***hicabı/örtüyü nurdur. Əgər onu qaldırsaydı, üzünün nuru gözlərinin gördüyü bütün məxluqatı yandırardı*** *(nə bir canlı, nə də gözlə görünən bir şey qalardı)».*[20]

Əhli Sünnə (alimləri), Allahın iki gözü olduğunda ittifaq etmişlər. Bunu Peyğəmbərin *salləllahu aleyhi və alihi və səlləm* Dəccal haqqındakı hədisi də

[19] Allahın ***ĞADAB***/Qəzəb sifətinin Sünnədə olan dəlilləri: Buxari 3197, 3340; Muslim 194, 2751.

[20] Muslim 179; İbn Macə 195, 196; Əhməd 4/395, 401, 405.

təsdiq etməkdədir: ***«Dəccalın bir gözü** (sağ gözü) **kordur. Ancaq Rəbbinizin bir gözü kor deyildir».***[21]

Biz,

Allahın, Özünü bu ayədə vəsf etdiyi kimi olduğuna iman edirik: ***«Gözlər Onu dərk etmir. O isə gözləri dərk edər. O, Lətifdir,** (hər şeydən) **Xəbərdardır». (Ənam 103).***

Biz,

Qiyamət günü möminlərin Rəbblərini görəcəklərinə[22] iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«O gün** (neçə–neçə) **üzlər nurlanacaq və öz Rəbbinə baxacaqdır!». (Qiyamət 22 - 23).***

Biz,

Allahın, kamil sifətlərə sahib olduğuna və Onun heç bir bənzərinin olmadığına iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir». (Şura 11)***[23]

Biz,

Allahın, Həyy[24] və Qayyum olmasının[25] kamilliyi səbəbi ilə, Ona nə bir mürgüləmə, nə də bir yuxulama gəlmədiyinə iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Onu nə mürgü, nə də yuxu tutar». (Bəqərə 255)***[26]

Biz,

Allahın, ədalətinin[27] kamilliyinə görə heç kəsə zülm etməyəcəyinə[28] iman edirik.

---

[21] Buxari 7131, 7408; Muslim 2933; Tirmizi 2245; Əbu Davud 4316; Tayəlisi 1963.

[22] Möminlərin Qiyamət günü Allahı görəcəklərinə dair Sünnədə olan dəlillər: Buxari 554; Muslim 181, 633.

[23] Allahın bənzərinin olmadığına dair Qurandaki dəlilləri: Məryəm 65; İxlas 4.

[24] Allahın ***HƏYY***/Diri sifətinin Qurani Kərimdə olan dəlilləri: Bəqara 255; Ali-İmran 2; Taha 11; Furqan 58; Mumin 65; Sünnədə olan dəlillər üçün baxın: Muslim 2717.

[25] Allahın ***QAYYUM***/Əbədi mövcud olan sifətinin Qurani Kərimdə olan dəlilləri: Bəqara 255; Ali-İmran 2; Taha 11; Sünnədə olan dəlillər üçün baxın: Buxari 7385, 7442, 7499; Muslim 769.

[26] Sünnədə olan dəlil üçün baxın: Muslim 179.

[27] Allahın ***ADL***/Ədalət sifətinə Sünnədəki dəlil üçün bax: Buxari 3150; Muslim 1062.

[28] Zülm sifətinin Allaha aid olmadığına dair Qurani Kərimdə olan dəlillər: Bəqara, 272, 279, 281; Ali-İmran 25, 117, 161, 182; Nisa 77, 124; Ənam 160; Ənfal 51; Tövbə 70; Yunus 47, 54; Hud 101; Nəhl 33, 111, 118; İsra 71; Məryəm 60; Ənbiya 47; Həcc 10; Muminun 62; Ənkəbut 40; Rum 9; Yasin 54; Zumər 69; Zuxruf 69; Cəsiyə 22; Əhqaf 19; Qaf 29.

Biz,

Allahın, bəndələrinə nəzarətinin[29] və onları hər tərəfdən əhatə etməsinin[30] kamilliyi səbəbi ilə bəndələrinin etdiklərindən qafil olmadığına[31] iman edirik.

Biz,

Allahın, elm[32] və qüdrətinin[33] kamilliyinə görə göylərdə və yerdə heç bir şeyin Onu aciz edə bilməyəcəyinə[34] iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Bir şeyi** (yaratmaq) **istədikdə ona təkcə: «Ol!» - deyər, o da olar». (Yasin 82).***

Biz,

Qüvvətinin[35] kamilliyinə görə Allaha heç bir yorğunluq və usanmanın baş verməyəcəyinə iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Biz göyləri, yeri və onların arasında olanları altı gündə yaratdıq və Bizə heç bir yorğunluq üz vermədi». (Qaf 38).***

Biz,

Allahın, Özü haqqında və ya Elçisi Muhəmmədin *salləllahu aleyhi və alihi və səlləm* Allah haqqında bildirdiyi Allaha aid gözəl ad və sifətlərinin sabit olduğuna iman edirik. Ancaq, bu iki təhlükəli haldan özümüzü uzaq tuturuq.

***BİRİNCİSİ***; təmsildir ki, bir kəsin qəlbi və ya dili ilə - «Allahın sifətləri məxluqların sifətləri kimidir» - deməsi.

***İKİNCİSİ***; təkyifdir ki, bir kimsənin qəlbi və ya dili ilə – "Allahın sifətlərinin mahiyyəti, keyfiyyəti haqqında fikir yürüdərək «filan cürdür» deməsidir".

---

[29] Allahın ***RAQİB***/Hər şeyə nəzarət etmək sifətinin Qurani Kərimdə olan dəlilləri üçün baxın: Nisa 1; Maidə 117; Əhzab 52.

[30] Allahın hər şeyi əhatə etmək sifətinin Qurani Kərimdə olan dəlilləri üçün baxın: Bəqərə 19; Ali-İmran 120; Nisa108, 126; Ənfal 47; Hud 92; Fussilət 54; Buruc 20.

[31] Qəflət sifətinin Allaha aid olmadığına dair Qurani Kərimdə olan dəlilləri üçün bax: Bəqərə 74, 85, 140, 144, 149; Ali-İmran 99; Ənam 132; Hud 123; İbrahim 42; Nəml 93

[32] Allahın ***ELM***/Hər şeyi bilmək sifətinin Qurani Kərimdə olan dəlili o qədər çoxdur ki, üçünü qeyd etməklə kifayətləndik: Bəqərə 255; Maidə 97; Əhzab 40; Sünnədə olan dəlillər üçün baxın: Buxari 6382; Tirmizi 480; İbn Macə 1383.

[33] Allahın ***QÜDRƏT***/Hər şeyə qadir olmaq sifətinin də Qurani Kərimdə olan dəlili çoxdur. Üçü ilə kifayətləndik: Bəqərə 20; Ənam 65; Kəhf 45; Sünnədə olan dəlillər üçün baxın: Muslim 1650, 2202.

[34] Acizlik sifətinin Allaha aid olmayacağı barədə Qurani Kərimdə olan dəlillər üçün baxın: Ənfal 59; Fatir 44.

[35] ***QÜVVƏT*** sifətinin Qurani Kərimdə olan dəlillərindən yalnız üçünü qeyd etdik: Bəqərə 165; Hud 66; Zariyat 58; Sünnədə olan dəlil üçün baxın: Əhməd 5/297.

Allahın, Özü haqqında və ya Elçisi Muhəmmədin *salləllahu aleyhi və alihi və səlləm* Allahın ad və sifətləri haqqında rədd etdiyi şeyləri biz də rədd edirik. Allaha nisbət edilənləri (naqislikləri) rədd etmək onun ad və sifətlərinin kamil olmasını vacib edir. Allah və Rəsulunun *salləllahu aleyhi və alihi və səlləm* haqqında bir şey söyləməyib susduğu məsələlərdə biz də susuruq.

Biz,

Bu yolla getməyi, tərk edilməsi əsla mümkün olmayan bir fərz/vacib hesab edirik. Çünki Allahın Özü haqqında təsdiq və ya inkar etdiyi şeyləri bilavasitə Özü xəbər vermişdir. Ona görə də Allahı Özündən daha yaxşı tanıyan, Ondan daha doğru və gözəl söz danışan heç kəs yoxdur. Bəndələri isə Onu haqqı ilə tanıya bilməzlər.

Peyğəmbərin *salləllahu aleyhi və alihi və səlləm* Allah *subhənəhu və təalə* haqqında təsdiq və ya inkar etdiyi şeylərə gəlincə, onlar da bilavasitə Allah Elçisi *salləllahu aleyhi və alihi və səlləm* tərəfindən Rəbbi haqqında bildirdiyi xəbərlərdir. Çünki Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* insanlar içərisində Allahı ən yaxşı tanıyan, bəndələri içərisində ən gözəl öyüd nəsihət verən, ən açıq, ən düzgün və ən gözəl tərzdə danışan insan olub.

Allah və Rəsulunun *salləllahu aleyhi və alihi və səlləm* sözləri elm, düzgünlük və bəyan etmə yönündən ən kamil olandır. O sözləri qəbul etməyib, rədd etmək və ya qəbulunda tərəddüd etmək üzürlü sayıla bilməz.

# BİRİNCİ HİSSƏ

## ALLAHA İMAN

Biz,

Allahın sifətləri haqqında təfsilatlı və geniş, təsdiq və inkar cəhətindən qeyd etdiyimiz hər şeydə Rəbbimizin Kitabı və Peyğəmbərimizin *salləllahu aleyhi və alihi və salləm* Sünnəsinə etimad edərək, bu ümmətin sələfi və onlardan sonra gələn hidayət[36] rəhbəri olan imamların yolu ilə gedirik.

Biz,

Allahın sifətləri haqda Quran və Sünnənin bəyan etdiklərinin, Allaha layiq olan bir şəkildə zahirinə və həqiqi mənasına görə başa düşülməsinin mühümlüyünə iman edirik.

Biz,

Allahın sifətlərini təhrif edərək Allah və Rəsulunun *salləllahu aleyhi və alihi və salləm* qəsd etdikləri mənalardan başqa mənalara dəyişdirənlərin yolundan uzaq dururuq.

Biz,

Allahın sifətlərini, Allah və Rəsulunun *salləllahu aleyhi və alihi və salləm* qəsd etdikləri mənalardan uzaqlaşdıranların yolundan uzağıq.

Biz,

Allahın sifətlərinə necəlik və ya keyfiyyət verməklə həddini aşanların yolundan uzaq dururuq.

Biz,

Allahın Kitabı ilə Peyğəmbərin *salləllahu aleyhi və alihi və salləm* Sünnəsində varid olan məlumatların haqiqət olduğunu, xəbər verilən bu məlumatlarda hər hansı bir ziddiyyətin olmadığını yəqin bilirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar». (Nisa 82).***

---

[36] ***HİDAYƏT*** - doğru, haqq yol

Çünki xəbər verilən məlumatlarda ziddiyyətin olması, bu məlumatların bir-birini təkzib etməsinə gətirib çıxarır. (Yəni birinin doğru, digərinin yalan olması lazım gəlir.) Allah və Elçisi Muhəmmədin *salləllahu aleyhi və alihi və səlləm* xəbər verdiyi məlumatlarda belə bir şeyin olması mümkün deyildir.

Hər kim Allahın Kitabında, Rəsulu Muhəmmədin *salləllahu aleyhi və alihi və səlləm* Sünnəsində və ya Quran ilə Sünnə arasında bir uyğunsuzluğun və ziddiyyətin olduğunu iddia edərsə, o şəxs pis niyyətli və qəlbində əyrilik olan bir kimsədir. Onun dərhal Allaha tövbə etməsi, zəlalətdə olduğu vəziyyətdən xilas olması lazımdır.

Allahın Kitabında, Rəsulunun *salləllahu aleyhi və alihi və səlləm* Sünnəsində və ya Quran ilə Sünnə arasında bir ziddiyyətin olduğunu zənn edən kimsənin ya elmi lazımınca deyildir, ya anlayışı dardır, ya da yaxşı düşünməyib. Buna görə də həmin şəxs haqqın ona aydın olması üçün elm öyrənməli, düşüncəsini dərinləşdirmək üçün çox çalışmalıdır. Əgər həqiqət ona aydın olmasa bu işi bilənə həvalə etməli, pis zənlərdən uzaqlaşmalı və elmdə qüvvətli olanlar kimi belə deməlidir: ***«Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir». (Ali İmran 7).***

Bilmək lazımdır ki, Quranda, Sünnədə və ya hər ikisi arasında heç bir ziddiyyət, uyğunsuzluq və ixtilaf yoxdur.

# İKİNCİ HİSSƏ

## MƏLƏKLƏRƏ İMAN

Biz,

Allahın mələklərinə, onların möhtərəm qullar olduğuna, itaətlərinə görə Rəbləri onlara əmr etmədikcə danışmadıqlarına və onlara izn vermədikcə bir iş görmədiklərinə iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«(Mələklər) möhtərəm qullardır. Ondan qabaq söz danışmaz, yalnız Onun əmri ilə iş görərlər». (Ənbiya 26-27).***

Allah *subhənəhu və təalə* mələklərini yalnız Ona ibadət etmələri və əmrinə təslim olmaları üçün yaratmışdır. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Onun dərgahında olanlar*** *(Allaha yaxın mələklər)* ***Ona ibadət etməyə təkəbbür göstərməz və yorulmaq bilməzlər. Onlar gecə-gündüz, yorulub-usanmadan*** *(Rəbbini)* ***təqdis edib şəninə təriflər deyərlər». (Ənbiya 19 - 20).***

Allah *subhənəhu və təalə* mələkləri görməyimizin qarşısını almaqdan ötəri onları bizim gözümüz üçün görünməz etmişdir. Allah onları yalnız bəzi bəndələrinə göstərmişdir.

Belə ki, Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* Cəbraili *əleyhissəlam* öz qiyafəsində, altı yüz qanadı ilə üfüqün qarşısını tutduğu şəkildə görmüşdür.[37]

Cəbrail *əleyhissəlam* Məryəmə *əleyhissəlam* kamil bir insan şəklində görsənmiş və Məryəm *əleyhissəlam* onunla, o da Məryəmlə *əleyhissəlam* qarşılıqlı danışmışlar.[38]

Bir dəfə də Cəbrail *əleyhissəlam* səhabələrin yanında heç kəsin tanımadığı, üzərində səfər əlaməti olmayan, ağ paltarlı, qara saçlı bir adam surətində gələrək Peyğəmbərin *salləllahu aleyhi və alihi və səlləm* yanında oturmuş, dizlərini onun dizlərinə dayamış, əllərini onun budlarının üzərinə qoymuşdur. Bir qədər söhbət etdikdən sonra çıxıb getmiş, Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* də səhabələrinə onun Cəbrail *əleyhissəlam* olduğunu xəbər vermişdir.[39]

Biz,

---

[37] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 6/50, 236, 241; Buxari 3234; Muslim 177.

[38] Qurani Kərimdə olan dəlil üçün baxın: Məryəm 17-21.

[39] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 1/28, 51, 52; Muslim 8; Əbu Davud 4695; Tirmizi 2610; Nəsai 8/97-101, İbn Macə 63.

Mələklərin - Allahın əmrini yerinə yetirməklə məsul olduqları bir sıra vəzifələrinin olduqlarına iman edirik.

***BU MƏLƏKLƏRİN BƏZİLƏRİ BUNLARDIR:***

***CƏBRAİL:*** Vəhylə məsul olunmuş mələkdir. Allah təaladan qəbul etdiyi vəhyi Allahın istədiyi peyğəmbərinə və ya rəsuluna endirir.[40]

***MİKAİL:*** Yağışı yağdırmaq və bitkiləri yetişdirməklə məsul olunmuş mələkdir.[41]

***İSRAFİL:*** Qiyamət gününün vaxtı gəlib çatdıqda Sura üfürməklə məsul olan mələkdir.[42]

***ÖLÜM MƏLƏYİ/MƏLƏKUL-MƏUT:*** [43] Ölüm anında ruhları çıxarmaqla məsul olan mələkdir.[44]

***DAĞ MƏLƏKLƏRİ MƏLƏKUL-CİBƏL:*** Dağlarla məsul olan mələkdir.[45]

***MALİK:*** Cəhənnəmin keşikçisidir.[46]

***RAHİM MƏLƏKLƏRİ:*** Ana bətnindəki körpələrin əcəllərini, ruzilərini, cənnətlik yoxsa cəhənnəmlik olacaqlarını yazmaqla mükəlləf olan mələklərdir.[47]

***MÜHAFİZƏ EDƏN MƏLƏKLƏR:*** Hər cür təhlükəyə qarşı insanları qorumaqla, mühafizə etməklə məsul olan mələklərdir.[48]

***ƏMƏLLƏRİ QEYD EDƏN MƏLƏKLƏR:*** Hər bir şəxs üçün əməlləri qeydə alaraq yazan iki mələkdir (Kiramən Kətibin).[49] Allah *subhənəhu və təalə* insanların əməllərini yazmaqla məsul olan bu mələklər barəsində belə buyurur: ***«Sağında və solunda iki*** *(mələk)* ***oturub*** *(onun*

---

[40] Qurani Kərimdəki dəlillər üçün bax: Bəqərə 97; Nəhl 102; Şuəra 193-195; Nəcm 4-5.

[41] Sünnədə olan dəlillər üçün baxın: Əhməd1/274; Təbərani «əl-Kəbir» 11/379, 12061.

[42] Sura birinci dəfə üfürüldükdə **(Sa'ak)** hər bir canlı öləcəkdir. İkinci dəfə üfürüldükdə **(Ba's)** isə hər kəs təkrar diriləcək, qəbirlərindən qaldırılaraq hesab vermək üçün Allah təalanın hüzurunda duracaqdır. Haqq hesab vermək üçün ayağa qalxıldığına görə Qiyamət («Qiyam» ayaq üstə durmaq sözündən) deyilmişdir. Bəzi alimlər ayə və hədislərə görə belə qənaətə gəliblər ki, üç üfürmə olacaq: **Fəza'**/qorxu və dəhşət, **Sa'ak**/canlıların ölümü və **Ba's**/hesab vermək üçün yenidən diriliş. Əlavə məlumat üçün Qurani-Kərimdən olan dəlilə baxın: Nəml 87. Sünnədə olan dəlillər üçün baxın: Əhməd 1/326, 2/166; Muslim 2940; Tirmizi 3243.

[43] Məşhur hədis alimi Şeyx Albanii - *Allah ona rəhmət eləsin* - Ölüm mələyinin Əzrail kimi adlandırılması haqqında belə buyurur: «Mən deyirəm ki: Bu mələyin Quran və Sünnədə olan adı Ölüm mələyidir. İnsanlar arasında Ölüm mələyinin Əzrail kimi adlandırılmasının heç bir elmi əsası yoxdur. Ehtimallara görə İsrail övladlarından qalma məlumatdır». «Əhkəmul-Cənaiz və Bidəuhə» səh.199.

[44] Qurani Kərimdə olan dəlil üçün baxın: Səcdə 11.

[45] Sünnədə olan dəlillər üçün baxın: Buxari 3231; Muslim 1795.

[46] Qurani Kərimdə olan dəlil üçün baxın: Zuxruf 77.

[47] Sünnədə olan dəlillər üçün baxın: Buxari 3208, 3332, 6594, 7454; Muslim 2643.

[48] Qurani Kərimdə olan dəlil üçün baxın: Rad 11.

[49] Qurani Kərimdə olan dəlil üçün baxın: İnfitar 10-12.

*əməllərini qeydə alır)!*[50] ***Dediyi elə bir söz yoxdur ki,*** *(onu yazmaq üçün)* ***yanında hazır durmuş gözətçi olmasın». (Qaf 17 - 18).***

***QƏBİR MƏLƏKLƏRİ:*** Ölü qəbrə qoyulduqdan sonra ona üç şey haqqında sual verən iki mələkdir (Nəkir və Munkir). Bu iki mələk qəbrdə ölünün yanına gəlir və ona; Rəbbi, Dini və Peyğəmbəri *salləllahu aleyhi və alihi və salləm* haqqında sual verir.[51] Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Allah iman gətirənləri dünyada da, axirətdə də möhkəm bir sözlə***[52] ***sabit saxlayar. Allah zalımları sapdırar. Allah istədiyini edər». (İbrahim 27).***

***CƏNNƏT ƏHLİNİN MƏLƏKLƏRİ:*** Cənnətin hər qapısından cənnət əhlinin yanına gələrək onları cənnət nemətləri ilə müjdələməklə mükəlləf olan mələklərdir. Allah *subhənəhu və təalə* bu mələklər haqqında belə buyur ***«Mələklər bütün qapılardan onların yanına daxil olub*** *(deyəcəklər)*: ***«Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!». (Rad 23 - 24)***[53]

Peyğəmbər *salləllahu aleyhi və alihi və salləm* də səmada «Beytul - Məmur» deyilən yerə hər gün yetmiş min mələyin girdiyini; başqa bir rəvayətdə orada namaz qılmalarını Qiyamət gününə qədər də onlara növbə çatmadığı üçün bir daha oraya qayıtmayacaqlarını [54] xəbər verdiyi mələklər də vardır.

---

[50] Sağındakı mələk insanın savablarını, solundakı mələk isə günahlarını yazmaqla mükəlləf edilmişdir.

[51] Sünnədə olan dəlillər üçün baxın: Buxari 1338, 1374; Muslim 2870.

[52] Bu söz Kəlimeyi-Şəhadət olan «Ləiləhəilləllah, Muhəmmədən Rasulullah» sözüdür. Allah iman edənləri dünya həyatında haqq din üzrə yaşadıb, ölmədən öncə gözəl bir sonluqla dünyadan köçmələrini təmin edər. Qəbirdə isə Münkər və Nəkir adlı iki mələyin suallarına düz cavab vermələrini nəsib edər.

[53] Qurani Kərimdə olan dəlil üçün baxın: Zumər 73.

[54] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 4/208, 210; Buxari 3207; Muslim 164; Nəsai 1/217-221, 449; Təbərani «əl -Kəbir»19/599; İbn Hibban «əl-İhsən» 48.

# ÜÇÜNCÜ HİSSƏ

## KİTABLARA İMAN

Biz,

Allahın insanlara doğru yolu göstərmək, Qiyamət günü Allaha qarşı üzür gətirməmələri, aləmlərə hüccət/dəlil olması üçün onlara hikməti öyrədib, nəfslərini təmizləmələri üçün peyğəmbərlərinə kitablar endirdiyinə iman edirik.

Biz,

Allahın hər rəsul ilə birlikdə kitab endirdiyinə iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar». (Hədid 25).***

***ADLARINI BİLDİYİMİZ KİTABLAR BUNLARDIR:***

**1. *TÖVRAT:*** Allah *subhənəhu və təalə* tərəfindən Musaya *əleyhissəlam* endirilən, İsrail övladlarına verilmiş kitabların ən böyüyüdür. Allah *subhənəhu və təalə* bu kitab haqqında belə buyurur: ***«Şübhəsiz ki, Tövratı Biz nazil etdik. Onda hidayət və nur vardır.*** *(Allaha)* ***təslim olan peyğəmbərlər yəhudilər üçün bununla, din xadimləri və baş keşişlər isə Allahın Kitabından qorunub saxlanılanlarla hökm verirdilər. Onlar*** *(hamısı)* ***buna şahid oldular». (Maidə 44).***

**2. *İNCİL:*** Allahın İsaya *əleyhissəlam* endirdiyi, Tövratı təsdiq edən və tamamlayan kitabdır. Allah *subhənəhu və təalə* bu kitab haqqında belə buyurur: ***«Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik». (Maidə 46). «Məndən əvvəl*** *(nazil olmuş)* ***Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün*** *(göndərildim)****». (Ali İmran 50).***

**3. *ZƏBUR:*** Allahın Davuda *əleyhissəlam* göndərdiyi kitabdır.[55]

**4. *SUHUF:*** İbrahim[56] ilə Musaya[57] *əleyhimussəlam* endirilən səhifələrdir.

**5. *QURANİ KƏRİM:*** Allahın peyğəmbərlərinin sonuncusu olan Muhəmmədə *salləllahu aleyhi və alihi və səlləm* nazil etdiyi kitabdır. Allah *subhənəhu və təalə* Qurani Kərim haqqında belə buyurur: ***«İnsanlara doğru yolu***

---

[55] Qurani Kərimdə olan dəlillər üçün baxın: Nisa 163; İsra 55.
[56] Qurani Kərimdə olan dəlil üçün baxın: Alə 19.
[57] Qurani Kərimdə olan dəlillər üçün baxın: Nəcm 36; Alə 19.

***göstərən, bu yolun və*** *(haqqı batildən)* ***ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir». (Bəqərə 185).*** *Qurani-Kərim özündən əvvəlki kitabları təsdiq etmək və onlara hakim olması üçün göndərilmişdir.* ***«Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Ktabı haqq olaraq nazil etdik». (Maidə 48).***

Allah *subhənəhu və təalə* Qurani Kərim ilə ondan qabaq endirilən bütün kitabların hökmünü ləğv etmiş, təhrifçilərin və oyunbazların təcavüzündən qorumağı Öz öhdəsinə götürmüşdür. Allah *subhənəhu və təalə* bu barədə belə buyurur: ***«Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq». (Hicr 9).***

Çünki Qurani-Kərim, (bəhanə gətirməmələri üçün) Qiyamətə qədər bütün cinlərə və insanlara bir hüccət/dəlil olaraq qalacaqdır.

Qurani Kərimdən əvvəlki kitabların hamısı müəyyən bir dövr ərzində qüvvədə idi. Hər gələn növbəti kitab özündən əvvəlki kitabın hökmünü ləğv edir, onda ortaya çıxan təhrif və dəyişikliyi açıqlayırdı. Bu səbəblə də Qurani Kərimdən əvvəl göndərilən kitabların heç biri təhrif edilməkdən, əlavələr olunmasından və ya əskiltmələrdən xilas ola bilməmişdir. Allah *subhənəhu və təalə* bu barədə belə buyurur: ***«Yəhudilərin bir qismi*** *(Tövratdakı)* ***sözlərin yerini dəyişib təhrif edir». (Nisa 46). «Vay o şəxslərin halına ki, öz əlləri ilə kitab yazıb, sonra bir az pul almaqdan ötrü: «Bu, Allah tərəfindəndir!» - deyirlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şey üçün vay onların halına!». (Bəqərə 79). «De: «Musanın insanlara bir nur və hidayət olaraq gətirdiyi kitabı kim nazil etmişdir? Siz onu vərəqlərə yazıb göstərir, bir çoxunu da gizlədirsiniz». (Ənam 91). «Onlardan*** *(kitab əhlindən)* ***bir zümrə vardır ki, siz onların oxuduqlarını*** *(Tövratdan)* ***hesab edəsiniz deyə, Kitabı oxuyan zaman dillərini o tərəf - bu tərəfə əyirlər. Halbuki onların bu oxuduqları Kitabdan*** *(Tövratdan)* ***deyildir. Söylədikləri Allah dərgahından olmadığı halda, «Bu, Allah dərgahındandır!» - deyirlər. Onlar bilə-bilə Allaha qarşı yalan söyləyirlər. Heç bir kəsə yaraşmaz ki, Allah ona Kitab, hikmət və peyğəmbərlik bəxş etdikdən sonra o, insanlara: «Allahı buraxıb mənə qul olun!» - desin». (Ali İmran 78-79). «Ey Kitab əhli! Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir nur*** *(Muhəmməd)* ***və açıq–aydın bir Kitab gəldi. Allah onun rizasını arayan şəxləri*** *(bu Kitabla)* ***əmin–amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. «Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir!» - deyənlər artıq kafir oldular». (Maidə 15-17).***

# DÖRDÜNCÜ HİSSƏ

## PEYĞƏMBƏRLƏRƏ İMAN

Biz,

İnsanların Qiyamət günü Allaha qarşı bir bəhanələrinin olmamaları, Allahın verəcəyi savabı ilə müjdələmək və daddıracağı əzabından da çəkindirmək üçün peyğəmbərlər göndərdiyinə iman edirik. Allah *subhənəhu və təalə* bu barədə belə buyurur: ***«(Biz) müjdə verən və qorxudan elçilər (göndərdik) ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah Qüdrətlidir, Müdrikdir». (Nisa 165).***

Biz,

Onların ilkinin Nuh *əleyhissəlam*, sonuncusunun da Muhəmməd *salləllahu aleyhi və alihi və səlləm* olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də vəhy etdik». (Nisa 163)*** [58] ***«Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir!». (Əhzab 40)***[59]

Biz,

Peyğəmbərlərin ən fəzilətlisinin sıra ilə Muhəmməd *salləllahu aleyhi və alihi və səlləm*[60], sonra İbrahim *əleyhissəlam*, sonra Musa *əleyhissəlam*, sonra Nuh *əleyhissəlam*, sonra da Məryəm oğlu İsa *əleyhissəlam* olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Bir zaman Biz peyğəmbərlərdən əhd almışdıq; səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da! Biz onlardan möhkəm bir əhd almışdıq!». (Əhzab 7).***

Biz,

Allahın bu ayədə xüsusi olaraq qeyd etdiyi peyğəmbərlərin şəriətlərini özündə birləşdirdiyinə görə, Muhəmmədin *salləllahu aleyhi və alihi və səlləm* şəriətinin, onların şəriətlərinin üstünlüklərinə sahib olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«(Allah) Nuha tövsiyə***

---

[58] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 5/278; Buxari 3340, 4712; Muslim 194.

[59] Sünnədə olan dəlillər üçün baxın: Buxari 3535, 4712; Muslim 194, 523, 2286, 2889; Əbu Davud 4252.

[60] Sünnədə olan dəlillər üçün baxın: Buxari 3340, 4712; Muslim 194, 2276, 2278; Əhməd 4/107; Tirmizi 3612.

***etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: «Dində doğru–düzgün etiqad edin və onda bölünüb firqə–firqə olmayın!». (Şura 13)***[61]

Biz,

Peyğəmbərlərin hamısının yaradılmış bəşər olduğuna və onların Rübubiyyət/Allaha aid olan xüsusiyyətlərindən heç birinə malik olmadıqlarına iman edirik. Allah *subhənəhu və təalə* peyğəmbərlərin ilki olan Nuh *əleyhissəlam* haqqında belə buyurur: ***«Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi də bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm». (Hud 31).***

Allah *subhənəhu və təalə* həmçinin peyğəmbərlərin sonuncusu Muhəmmədə *salləllahu aleyhi və alihi və səlləm* də belə söyləməsini əmr etmişdir: ***«De: «Mən sizə demirəm ki, Allahın xəzinələri mənim yanımdadır. Mən qeybi bilmirəm. Mən sizə demirəm ki, mən mələyəm». (Ənam 50).***

Yenə ona belə söyləməsini əmr etmişdir: ***«De: «Mən Allahın istədiyindən başqa özümə nə bir fayda, nə də bir zərər yetirməyə qadir deyiləm». (Əraf 188).***

Aşağıdakı ayələrdə də belə söyləməsini əmr etmişdir: ***«De: «Mən sizə nə ziyan verməyə, nə də*** *(sizi)* ***doğru yola yönəltməyə qadirəm!» De: «Həqiqətən, məni Allahdan kimsə xilas edə bilməz və mən Ondan başqa bir pənah yeri tapa bilmərəm!». (Cinn 21-22).***

Biz,

Peyğəmbərlərin Allahın qulları olduqlarına, onlara elçilik vəzifəsi verərək üstün etdiyinə, məqamların ən ucası olan qulluq məqamı ilə nemətləndirdiyinə iman edirik.

Allah *subhənəhu və təalə* birinci peyğəmbər olan Nuh *əleyhissəlam* haqqında belə buyurur: *«(Ey)* ***Nuhla birlikdə*** *(gəmidə)* ***daşıdıqlarımızın nəsli! Nuh doğrudan da*** *(Bizə)* ***minnətdar olan bir qul idi». (İsra 3).***

Sonuncu peyğəmbər Muhəmməd *salləllahu aleyhi və alihi və səlləm* haqqında isə belə buyurur: ***«Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı*** *(Qranı)* ***nazil edən*** *(Allah)* ***necə də xeyirxahdır!». (Furqan 1).***

Digər Peyğəmbələr haqqında isə belə buyurur: ***«Qüdrət və bəsirət sahibi olan qullarımız İbrahimi, İshaqı və Yəqubu da yada sal!». (Sad 45). «Onarın dediklərinə səbir et və qüdrətli qulumuz Davudu yadına sal! O, daim*** *(Allaha)* ***üz tutardı». (Sad 17). «Biz Davuda Süleymanı bəxş etdik. O, necə də gözəl qul idi! Daima*** *(Allaha)* ***üz tutardı». (Sad 30).***

---

[61] Sünnədə olan dəlil üçün baxın: Muslim 153.

Allah *subhənəhu və təalə* Məryəm oğlu İsa *əleyhissəlam* haqqında belə buyurur: ***«O*** *(Məryəm oğlu İsa)* ***ancaq nemət*** *(Peyğəmbərlik)* ***verdiyimiz və İsrail oğullarına örnək*** *(ibrət)* ***etdiyimiz bir quldur». (Zuxruf 59).***

Biz,

Allahın peyğəmbərlik vəzifəsini Muhəmmədin *salləllahu aleyhi və alihi və səlləm* peyğəmbərliyi ilə sona çatdırdığına və onu insanların hamısına peyğəmbər olaraq göndərdiyinə iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«De: «Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın Elçisiyəm. Göylərin və yerin hökmranlığı Ona məxsusdur, Ondan başqa*** *(ibadətə layiq olan)* ***məbud yoxdur. O həm dirildir, həm də öldürür. Elə isə Allaha və Onun Elçisinə – yazıb–oxumaq bilməyən, həm də Allaha və Onun kəlmələrinə inanan peyğəmbərə iman gətirin. Onun ardınca gedin ki, bəlkə doğru yola yönələsiniz». (Əraf 158)***[62]

Biz,

Allahın qulları üçün din olaraq Muhəmmədin *salləllahu aleyhi və alihi və səlləm* şəriəti olan İslam dinini seçdiyinə və İslamdan başqa dini heç bir kəsdən qəbul etməyəcəyinə iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Həqiqətən, Allah yanında*** *(qəbul olunan)* ***din, İslamdır!». (Ali İmran 19). «Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim». (Maidə 3). «İslamdan başqa bir din axtaran şəxsdən, o*** *(din)* ***heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar!». (Ali İmran 85).***

Biz,

Hal hazırda yəhudilik, xristianlıq və başqa bir din kimi İslam dinindən kənar bir dinin Allah qatında məqbul, keçərli olduğunu iddia edənin kafir olduğuna iman edirik. Belə adam tövbə etsə tövbəsi məqbul sayılır. Bu fikirlərinə görə tövbə etməzsə dindən dönmüş mürtəd sayılaraq öldürülür.[63] Çünki o, Quranı inkar etmiş kimidir.

Biz,

Muhəmmədin *salləllahu aleyhi və alihi və səlləm* insanların hamısına peyğəmbər olaraq göndərildiyini inkar edənin - bütün peyğəmbərləri, hətta inandığı və ona tabe olduğunu iddia etdiyi peyğəmbəri də inkar

---

[62] Sünnədə olan dəlillər üçün baxın: Buxari 335, 438; Muslim 153, 522.

[63] Bu və ya başqa hökmlərin icrası şəriət ölkəsi daxilində həyata keçirilir.

etmiş olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Nuh tayfası da elçiləri yalançı saydı». (Şuəra 105).***

Allah *subhənəhu və təalə*, Nuhdan *əleyhissəlam* qabaq peyğəmbər gəlməməsinə baxmayaraq, Nuhun *əleyhissəlam* qövmünün bütün peyğəmbərləri yalançı saydığını bildirmişdir. Başqa bir ayədə belə buyurulur: ***«Allahı və Onun elçilərini inkar edənlər, Allahı Onun elçilərindən ayırmaq istəyib: «Biz*** *(o elçilərin)* ***bəzisinə inanır, bəzilərinə isə inanmırıq!» - deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər – məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq!». (Nisa 150 - 151).***

Biz,

Allahın elçisi Muhəmməddən *salləllahu aleyhi və alihi və səlləm* sonra peyğəmbər gəlməyəcəyinə iman edirik. Hər kim, Muhəmməddən *salləllahu aleyhi və alihi və səlləm* sonra peyğəmbərlik iddiasında olar və ya peyğəmbərlik iddiasında olan bir kimsəni təsdiq edərsə, kafir olur. Çünki bu şəxs, Allahı, Rəsulunu *salləllahu aleyhi və alihi və səlləm* və müsəlmanların ittifaqla qəbul etdikləri şeyi yalan saymış hesab olunur.

Biz,

Peyğəmbərdən *salləllahu aleyhi və alihi və səlləm* sonra elm, dəvət və idarə etmədə möminlərə xəlifəlik etmiş Raşidi [64] xəlifələrinə, onların ən fəzilətlisi və xəlifəliyə ən layiq olanının ardıcıl olaraq əvvəl Əbu Bəkr əs-Siddiq, sonra Ömər bin əl-Xəttab, sonra Osman bin Əffan, sonra da Əli bin Əbu Talib[65] - *Allah onların hamısından razı olsun* - olduğuna iman edirik.

Onlar fəzilət və üstünlük baxımına görə bir-birindən fərqli olduqları kimi, xəlifəliyə də ən layiq olanlardır. Allahın hikmətindən, dövrlərin ən xeyirlisi olan səhabə dövründə xəlifəliyə ən layiqli olanını xəlifə seçmişdir.

Biz,

Bir səhabənin fəzilət baxımından özündən daha üstün olan başqa bir səhabədən mütləq şəkildə üstün olmasa da, bəzi xüsusiyyətlərinə görə üstün olduğuna iman edirik. Çünki fəziləti vacib edən şeylər bir deyil, bir çoxdur və dəyişkəndir.

---

[64] ***RAŞİDİ*** - Ədalətli, düz yolda olan şəxslər.

[65] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 2/14, 5/382, 385, 399, 402; Buxari 3697; Əbu Davud 4627; Tirmizi 3662, 3663, 3707; İbn Macə 97.

Biz,

Bu ümmətin, ummətlər arasında ən xeyirli və Allah qatında ən üstün ümmət olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha da iman gətirirsiniz». (Ali İmran 110).***

Biz.

Bu ümmətin ən xeyirlisinin sıra ilə səhabə, tabiin, sonra da onlara tabe olanlar olduğuna iman edirik. Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* bir hədisdə belə buyurur: ***«Ümmətimdən bir camaat Allahın əmri gələnə qədər haqq üzrə olacaqlar. Onlara qarşı düşmən olanlar onlara zərər vura bilməyəcəklər»[66].***

Biz,

Səhabələr arasında baş vermiş anlaşılmazlıqların ictihaddan[67] irəli gəldiyinə, ictihadında düz olanın iki əcr, xəta edənin isə bir əcr qazandığına və Allahın da səhv ictihad edənin xətasını bağışladığına iman edirik.[68]

Biz,

Səhabələrin qüsurlarını xatırlamaqdan uzaq dururuq. Onları layiq olduqları tərif və gözəl sözlərlə yada salır və Allahın bu əmrinə görə qəlblərimizi onlara qarşı kin və həsəddən təmizləməyi özümüzə borc bilirik. ***«Sizlərdən** (Məkkənin) **fəthindən əvvəl xərcləyib döyüşənlər** (başqaları ilə) **eyni deyillər. Onların dərəcəsi** (mallarını fəthdən) **sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamısına ən gözəl olanı vəd etmişdir». (Hədid 10).***

Allah *subhənəhu və təalə* bizim haqqımızda isə belə buyurur: *«(Səhabələrdən)* ***sonra gələnlər deyirlər: «Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!». (Həşr 10).***

---

[66] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 4/101, 244, 248, 252; Buxari 3640, 3641, 7311, 7312, 7459, 7460; Muslim 1920, 1921; Tirmizi 2230; İbn Macə 10.

[67] *İCTİHAD* - Şəri bir hökmü başa düşmək üçün yetərincə səy göstərməkdir.

[68] Sünnədə olan dəlillər üçün baxın: Buxari 7352; Muslim 1716.

# BEŞİNCİ HİSSƏ

## AXİRƏT GÜNÜNƏ İMAN

Biz,

İnsanların Allahın hüzurunda hesaba çəkilmək üçün dirildiləcəkləri, ya nemətlər yurdu olan cənnət, ya da dəhşətli əzab yurdu olan cəhənnəmdə qalacaqları, o gündən sonra başqa bir günün olmayacağına və Qiyamət günü kimi tanınan Axirət gününə iman edirik.

Biz,

İsrafilin *əleyhissəlam* ikinci dəfə sura üfürməsilə Allahın hesaba çəkmək üçün ölüləri dirildəcəyi, ölümdən sonrakı dirilişə və qəbirlərdən çıxarılacağımıza iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar». (Zumər 68)***[69]

İnsanlar qəbirlərindən qaldırılacaq; ayaqyalın, üzərlərində heç bir paltar olmadan, anadan gəlmə vəziyyətdə və xitan[70] olunmamış bir şəkildə aləmlərin Rəbbinin hüzurunda hesab vermək üçün duracaqlar. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«(Məxluqatı) ilk dəfə yaratdığımız kimi yenə əvvəlki halına qaytaracağıq. Biz vəd vermişik. Sözsüz ki, Biz onu yerinə yetirəcəyik». (Ənbiya 104)***[71]

Biz,

Əməl dəftərlərinin insanların sağ tərəflərindən və ya sol tərəfin arxasından veriləcəyinə iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Kimin kitabı sağ əlinə veriləcəksə, o, yüngül sorğu–suala tutulacaq və sevincək öz ailəsinə qayıdacaqdır! Kimin kitabı arxa tərəfindən veriləcəksə, o*** *(özünə)* ***ölüm diləyəcək və alovlu oda atılacaqdır!». (İnşiqaq 7-12)***[72] Başqa bir ayədə isə belə buyurur: ***«Biz hər***

---

[69] Qurani Kərimdə olan dəlillər üçün baxın: Nəml 87; Sünnədə olan dəlillər üçün baxın: Əhməd 2/166; Muslim 2940.

[70] ***XİTAN*** - el içində sünnət olunmaq kimi tanınan İslam adətinin şəriətdəki adıdır.

[71] Sünnədə olan dəlillər üçün baxın: Buxari 3349,4625, 4740, 6524, 6525, 6526, 6527; Muslim 2859, 2860.

[72] Qurani Kərimdə olan dəlillər üçün baxın: Həqqa 19-20. Sünnədə olan dəlillər üçün baxın: Əhməd 4/414, 6/110; Buxari 103, 4939, 6536, 6537; Muslim 2876; Əbu Davud 4755; Tirmizi 2427; İbn Macə 4277.

***bir insanın əməlini öz boynundan asdıq. Qiyamət günü isə açıq vəziyyətdə qarşısına qoyulan kitabı ona göstərəcəyik. Kitabını oxu! Bu gün sənə özün–özünü hesaba çəkməyin yetər». (İsra 13-14)***[73]

Biz,

Qiyamət günü heç kəsə (zərrə qədər) haqsızlıq edilməyərək əməllərin çəkiləcəyi mizanın/tərəzinin qoyulacağına iman edirik. Allah *subhənəhu və taələ* bu haqda belə buyurur: ***«Zərrə qədər yaxşılıq edən*** *(əvəzini)* ***alacaqdır. Zərrə qədər pislik edən də*** *(əvəzini)* ***alacaqdır». (Zəlzələ 7-8).*** Digər ayələrdə isə belə buyurur: *«(O gün)* ***məhz tərəziləri ağır gələnlər nicat tapacaqlar. Tərəziləri yüngül gələnlər isə özlərini ziyana uğradanlardır.*** *(Onlar)* ***Cəhənnəmdə əbədi qalacaqlar. Od onların üzünü yandıracaq. Onlar orada qıc olmuş vəziyyətdə qalacaqlar». (Muminun 102-104) «Kim*** *(Qiyamət günü)* ***yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər. Kim pislik gətirərsə, ona ancaq gətirdiyinin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz». (Ənam 160)***[74]

Biz,

Peyğəmbərin *salləllahu aleyhi və alihi və səlləm* ona xas olan böyük şəfaətinə iman edirik. İnsanlar qiyamət günü dözülməz, böyük bir sıxıntı və kədərlə qarşılaşdıqda, özlərinə şəfaətçi olması üçün növbə ilə Adəmin *əleyhissəlam*, sonra Nuhun *əleyhissəlam*, sonra İbrahimin *əleyhissəlam*, sonra İsanın *əleyhissəlam*, sonda isə Muhəmmədin *salləllahu aleyhi və alihi və səlləm* yanına gəlirlər. Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* - Allahın izni ilə insanlar arasında hökm verməkk üçün Allahın hüzurunda onlara şəfaətçi olacaqdır[75].

Biz,

Peyğəmbərimiz Muhəmməd *salləllahu aleyhi və alihi və səlləm* ilə digər peyğəmbərlərin, möminlərin və mələklərin cəhənnəmə girən möminlərə - *Allahın izni ilə* - şəfaət edib onları cəhənnəmdən çıxaracağına iman edirik.[76]

---

[73] Qurani Kərimdə olan dəlillər üçün baxın: Kəhf 49; Təkvir 10.

[74] Qurani Kərimdə olan dəlillər üçün baxın: Əraf 8-9; Kəhf 105; Ənbiya 47; Qariə 6-9. Sünnədə olan dəlillər üçün baxın: Əhməd 2/213, 221, 222; Buxari 4729; Muslim 2785; Tirmizi 2639; İbn Macə 4300.

[75] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 2/435, 436; 3/116, 244, 247, 248; Buxari 44, 3340, 3361, 4476, 4712, 6565, 7410, 7440, 7509, 7510, 7516; Muslim 193, 194; Tirmizi 2434; İbn Macə 4312.

[76] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 3/94, 213; Muslim 183; Əbu Davud 4739; Tirmizi 2435.

Biz,

Allah təalanın (heç kəsin) şəfaətinə ehtiyac olmadan, lütfü və rəhməti ilə iman edənlərdən bir çoxlarını cəhənnəmdən çıxaracağına iman edirik.[77]

Biz,

Qiyamət günü Peyğəmbərin *salləllahu aleyhi və alihi və səlləm* hovuzunun olacağına, suyunun süddən ağ, dadının baldan şirin, iyinin miskdən gözəl qoxulu, eni və uzunluğunun (gedilən) bir aylıq yol qədər geniş, ətrafında olan qədəhlərin ulduzlar kimi gözəl və çox olacağına, ümmətindən sadəcə mömin olanların ondan içəcəyinə və bu sudan bar dəfə içənin bir daha əbədiyyən susamayacağına iman edirik[78].

Biz,

Qiyamət günü cəhənnəmin üzərindən qoyulacaq «Sirat»[79] körpüsünə iman edirik. İnsanların onun üzərindən keçməsi əməllərinə görə olacaqdır. «Sirat» üzərindən keçən birinci dəstə ildırım kimi, ikinci keçən dəstə külək kimi, üçüncü dəstə quşlar kimi, sonrakı dəstə isə adi addımlarla keçəcəkdir. Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* «Sirat» üzərində duraraq belə yalvaracaq: «Ya Rəbb! Bizi («Sirat» körpüsünün həyəcanından qurtarıb, onun qorxusundan) arxayın et!» Bəndələrin keçməsi qurtardıqdan sonra, ora sürünərək başqa bir dəstə gələcək. «Siratın» hər iki tərəfində əmr ediləni tutmaq üçün asılı vəziyyətdə olan dəmir qarmaqlar vardır. Qarmaqlardan qurtulanlar xilas olacaq, tutduqları isə cəhənnəmə atılacaqdır[80].

Biz,

Qiyamət gününün dəhşəti haqqında Quran və sünnənin xəbər verdiyi hər bir şeyə iman edirik. Allah *subhənəhu və təalə*, o günün dəhşətində bizlərə yardım etsin. (Amin!)

Biz,

---

[77] Sünnədə olan dəlillər üçün baxın: Buxari 5811, 6542; Muslim 216, 217, 218.

[78] Qurani Kərimdə olan dəlil üçün baxın: Kəvsər 1. Sünnədə olan dəlillər üçün baxın: Buxari 6579; Muslim 247, 2292.

[79] ***SİRAT*** - körpü.

[80] Qurani Kərimdə olan dəlillər üçün baxın: Məryəm 71-72; Hədid 12-15. Sünnədə olan dəlillər üçün baxın: Buxari 806, 6573, 7437, 7439; Muslim 182, 183, 187, 191, 195.

Peyğəmbərin *salləllahu aleyhi və alihi və sələm* Cənnət əhlinin cənnətə girmələri üçün şəfaət edəcəyinə və bu şəfaətin yalnız ona xas olduğuna iman edirik.[81]

Biz,
Cənnət və cəhənnəmə iman edirik. Cənnət, Allahın müttəqi möminlər üçün hazırladığı nemətlər yurdudur. Orada heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç kəsin xəyalına belə gətirmədiyi nemətlər vardır. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir». (Səcdə 17)***[82]

Cəhənnəm, Allahın zalım kafirlər üçün hazırladığı əzab yurdudur. Orada ağla gəlməyən əzab və işgəncələr vardır. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Biz zalımlar üçün elə bir Od hazırlamışıq ki, onun divarları onları əhatə edəcəkdir. Onlar kömək dilədikdə əridilmiş metal kimi üzlərini qovuran bir su ilə kömək ediləcəkdir. Nə pis içkidir! Nə pis məskəndir!». (Kəhf 29)***[83]

Cənnət və Cəhənnəm bu an mövcuddur və əbədiyyən də yox olmayacaqdır. Allah *subhənəhu və təalə* Cənnət haqqında belə buyurur: ***«Hər kəs Allaha iman gətirib saleh əməl işləsə,*** *(Allah)* ***onu içində əbədi qalacağı*** *(ağacları)* ***altından çaylar axan Cənnət bağlarına daxil edər. Allah ona gözəl ruzi nəsib etmişdir». (Talaq 11).***

Cəhənnəm haqqında isə belə buyurur: ***«Həqiqətən, Allah kafirləri lənətləmiş və onlar üçün*** *(yaxıb–yandıran)* ***Od hazırlamışdır. Onlar orada əbədi qalacaq,*** *(özlərinə)* ***nə bir himayəçi, nə də bir yardımçı tapa bilməyəcəklər. Üzləri odda o yan–bu yana döndəriləcəyi gün onlar deyəcəklər: «Kaş biz Allaha ibadət edəydik, Onun Elçisinə müti olaydıq!». (Əhzab 64-66).***

Biz,
Quran və Sünnənin adlarını və ya vəsflərini bildirərək cənnətlik olduqlarına şahidlik etdiklərinə şahidik.

---

[81] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 2/435, 436; 3/116, 244, 247, 248; Buxari 44, 3340, 3361, 4476, 4712, 6565, 7410, 7440, 7509, 7510, 7516; Muslim 193, 194; Tirmizi 2434; İbn Macə 4312.
[82] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 2/437; 5/334; Buxari 4779, 4780, 7498; Muslim 2824, 2825; Tirmizi 3292.
[83] Sünnədə olan dəlillər üçün baxın: Buxari 6561, 6562; Muslim 213.

Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* bilavasitə özü Əbu Bəkr, Ömər, Osman, Əli və bəzi səhabələrin - *Allah onların hamısından razı olsun* - Cənnətlik olduqlarına şahidlik etmişdir.[84]

Quran və Sünnənin, mömin və müttəqi olaraq vəsf etdiyi hər kəsin cənnətlik olduğuna biz də iman edirik.[85]

Həmçinin, Quran və Sünnənin adlarını və vəsflərini qeyd edərək cəhənnəmlik olduqlarını bildirdiyi kimsələrin cəhənnəmlik olduqlarına iman edirik.

Quran və Sünnə, Əbu Ləhəb[86], Amr b. Luhay əl - Xuzai[87] və onun kimilərinin cəhənnəmlik olduqlarına şahiddir.

Quran və Sünnə, kafir və ya böyük şirk edən müşrik və münafiq olaraq vəsf etdiyi hər kəsin cəhənnəmlik olduqlarına şahiddir.[88]

Biz,

Ölünün qəbirə qoyulduqdan sonra Rəbbi, Dini və Peyğəmbəri haqqında sorğu-sual olunacaq qəbir fitnəsinə iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Allah iman gətirənləri dünya həyatında da, axirətdə də möhkəm sözlə sabit saxlayar». (İbrahim 27).***

***MÖMİN*** - Rəbbim Allah, dinim İslam, peyğəmbərim Muhəmməd *salləllahu aleyhi və alihi və səlləm* deyə cavab verəcəyi halda, ***KAFİR VƏ MÜNAFİQ*** - bilmirəm, insanların bəzi şeylər söylədiklərini eşitdim, mən də elə dedim - deyəcək.[89]

Biz,

Allahın qəbir həyatında möminlər üçün hazırladığı qəbir nemətlərinə iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«O kəslər ki, tər–təmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: «Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!». (Nəhl 32)[90]***

---

[84] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 1/187, 188, 189; Əbu Davud 4649, 4650; Tirmizi 3748, 3757; İbn Macə 134; Hakim 3/440, Alluşun təhqiqi ilə 5914; Şeyx-Albaninin təhqiqi ilə: «Səhihul-Cəmiis-Sağir» 4010.

[85] Qurani Kərimdə dəlillər üçün bax: Tövbə 72; Fəth 5; Hicr 45; Duhan 51; Qələm 34.

[86] Qurani Kərimdə olan dəlillər üçün baxın: Əbu Ləhəb 3. Sünnədə olan dəlillər üçün baxın: Buxari 1394, 4770, 4801, 4971, 4972, 4973; Muslim 208; Tirmizi 3363.

[87] Sünnədə olan dəlillər üçün baxın: Buxari 3521, 4623; Muslim 2856.

[88] Qurani Kərimdə olan dəlillər üçün baxın: Bəqərə 24; Nisa 140; Maidə 72; Fəth 6.

[89] Sünnədə olan dəlillər üçün baxın: Buxari 1338, 1374; Muslim 2870.

[90] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 4/287, 295, 296; Buxari 1338, 1374; Muslim 2870; Əbu Davud 4753.

Biz,

Allahın qəbir həyatında zalım kafirlər üçün hazırladığı qəbir əzabına iman edirik. Allah subhənəhu və təalə bu haqda belə buyurur: ***«Zalımları ölüm girdabında olduqda, mələklərin də əllərini uzadıb: «Canlarınızı çıxarın! Allaha qarşı nahaq sözlər söylədiyinizə və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə bu gün siz cəzalandırılacaq-sınız!»** - (dediklərini) **bircə görəydin». (Ənam 93)***[91]

Bu barədə rəvayət edilən hədislər çoxdur. Bu səbəblə möminin üzərinə düşən vəzifə Quran və Sünnənin qeyblə əlaqəli məsələlərdə xəbər verdiyi hər şeyə inanması, bu məsələləri dünyada rast gəlinən şeylərlə müqayisə edərək onlara etiraz etməməsi lazımdır. Çünki, axirətlə əlaqəli məsələlər, hər ikisi arasındakı nəzərə çarpan böyük fərqə görə dünyadakı şeylərlə müqayisə edilə bilməz.

[91] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 4/287, 295, 296; Buxari 1338, 1374; Muslim 2870; Əbu Davud 4753.

# ALTINCI HİSSƏ

## QƏZA VƏ QƏDƏRƏ İMAN

Biz,

Allahın əzəli elmi və uca hikmətinə uyğun olaraq, bütün yaradılanlara təqdir etdiyi qədərin həm xeyrinə, həm də şərinə iman edirik.

***QƏDƏRƏ İMANIN DÖRD MƏRTƏBƏSİ VAR:***

**Birinci mərtəbə: Elm**

Biz,

Allahın hər şeyi bildiyinə iman edirik.[92] O, keçmişdə olanla gələcəkdə olanı, onun necə olacağını, əzəli və əbədi elmi ilə bilir. Onun bir şeydən xəbərsiz olması və sonra bilməsi və ya bildiyi halda unutması mümkün deyildir (Çünki O hər şeyi əzəldən bəri bilir. Sonradan öyrənməz, bildiyini də əsla unutmaz).

***İKİNCİ MƏRTƏBƏ: KİTABA YAZMASI***

Biz,

Allahın qiyamət gününə qədər baş verəcək hər şeyi «Lövhi-Məhfuz» adlı kitabda yazdığına iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Məgər bilmirsənmi ki, Allah göydə və yerdə olanları bilir? Həqiqətən, bu Yazıda*** *(Lövhi-Məhfuzda)* ***mövcuddur. Şübhəsiz ki, bu Allah üçün asandır!». (Həcc 70)***[93]

***ÜÇÜNCÜ MƏRTƏBƏ: MÜŞİƏ - DİLƏMƏSİ***

Biz,

Allahın göylərdə və yerdə olan hər şeyin Onun istəyi ilə olduğuna, Onun iradəsi olmadan heç bir şeyin olmayacağına, istədiyinin olacağına, istəmədiyinin də olmayacağına iman edirik.[94]

***DÖRDÜNCÜ MƏRTƏBƏ: YARATMA***

Biz,

Allahın hər şeyi yaratdığına, göylərin və yerin xəzinələrinin Onun əlində olduğuna iman edirik. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur:

[92] Qurani-Kərimdə olan dəlillər üçün baxın: Bəqərə 30, 216; Ənam 53, 59, 124; Ənkəbut 10; Səba 3; Həşr 22; Talaq 12; Qələm 7.

[93] Qurani-Kərimdə olan dəlillər üçün baxın: Ənam 59; Yunus 61; Taha 51, 52; Fatir 11; Yasin 12; Qəmər 52, 53. Sünnədə olan dəlillər üçün baxın: Əhməd 2/169; Muslim 2653; Tirmizi 2156.

[94] Qurani-Kərimdə olan dəlillər üçün baxın: Ənam 25, 39; Nəhl 40, 93; Kəhf 23, 24; İnsan 30. Sünnədə olan dəlillər üçün baxın: Əhməd 2/168, 173; Muslim 2654.

***«Allah hər şeyin Xaliqidir. O, hər şeyi Qoruyandır. Göylərin və yerin açarları Ondadır». (Zumər 62-63)***[95]

Bu dörd mərtəbə Allahın yaratdıqlarını əhatə etdiyi kimi, qullarının etdiklərini də əhatə edir. Qullarının dedikləri sözlər, etdikləri əməllər və ya etməyib tərk etdikləri şeylərin hamısı Allah *subhənəhu və təalə* tərəfindən bilinmiş və Onun qatında yazılmışdır. O şeyləri, Allah *subhənəhu və təalə* istəmiş və yaratmışdır. Allah *subhənəhu və təalə* aşağıdakı ayələrdə bu haqda belə buyurur: ***«Sizlərdən doğru** (yolda) **olmaq istəyənlər üçün. Aləmlərin Rəbbi Allah istəməyincə, siz istəyə bilməzsiniz!». (Təkvir 28-29). «Əgər Allah istəsəydi, onlar bir-biriləri ilə vuruşmazdılar. Lakin Allah istədiyini edir!». (Bəqərə 253). «Əgər Allah istəsəydi, onlar bunu etməzdilər. Elə isə onları uydurduqları ilə birlikdə tərk et». (Ənam 137). «Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır». (Saffət 96).***

Biz,

Bununla yanaşı Allahın bəndəsinə seçmə haqqı ilə qüdrət verdiyinə və hərəkətin/əməlin bilavasitə bu ikisilə həyata keçdiyinə iman edirik. Bəndənin etdiyi hərəkətin/əməlin onun öz seçim iradəsi və qüdrəti ilə edilməsinə dəlalət edən ayələr çoxdur.

***BƏNDƏNİN HƏRƏKƏTİNİN ÖZ SEÇİMİ VƏ QÜDRƏTİ İLƏ OLDUĞUNA DAİR DƏLİLLƏR:***

1. Allahın bu buyruqları: ***«Qadınlarınız sizin tarlanızdır. Qadınlarınıza nə təhər istəyirsinizsə yaxınlaşın». (Bəqərə 223). «Əgər onlar*** *(döyüşə)* ***çıxmaq istəsəydilər, mütləq ona hazırlıq görərdilər». (Tövbə 46).***

Allah *subhənəhu və təalə* bu iki ayədə bəndəsinin öz həyat yoldaşı ilə yaxınlıq etməsini və döyüş üçün hazırlaşmasını qulun öz iradəsi ilə olduğunu bildirmişdir.

2. Əmr və qadağaların tətbiqi bəndənin ixtiyarına buraxılmışdır. Əgər bəndənin bu məsələdə seçmək hüququ və gücü olmasaydı, bu onun üçün yerinə yetirə bilməyəcəyi bir vəzifə olardı ki, bu da Allahın hikmətinə, rəhmətinə və aşağıdakı ayədə xəbər verdiyi doğru sözünə uyğun gəlməzdi: ***«Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər». (Bəqərə 286).***

---

[95] Qurani Kərimdə olan dəlillər üçün baxın: Rum 40; Loğman 11; Fatir 3; Saffət 96. Sünnədə olan dəlillər üçün baxın: İbn Əbi Asim «əs-Sünnə», «Ziləlul-Cənnə» 537; Hakim 1/32, Alluşun təhqiqi ilə 93; Beyhəqi «əl-Əsma vəs-Sifət»1/398; Albani «Silsilətul-Əhədisis-Səhihə» 1637.

3. Yaxşılıq edənin etdiyi yaxşılığa görə mədh edilməsi, pislik edənin isə etdiyi pisliyə görə qınanması və hər kəsin layiq olduğunu alacağı. Əgər bəndənin əməli öz iradə və seçimi ilə olmasaydı, Allahın yaxşılıq edəni mədh etməsi əbəs yerə, pislik edənin isə cəzalandırılması zülm olardı ki, Allah *subhənəhu və təalə* əbəs yerə mədh etməkdən və ümumiyyətlə zülm etməkdən uzaqdır.

4. Allah *subhənəhu və təalə*, Qiyamət günü insanların peyğəmbərlərdən sonra Allaha qarşı bir üzür gətirməmələri üçün, müjdə verən və xəbərdar edici olaraq peyğəmbərlər göndərmişdir. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«****(Biz)* ***müjdə verən və qorxudan elçilər*** *(göndərdik)* ***ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın». (Nisa 165).*** Əgər bəndənin əməli, öz iradə və seçimi ilə olmasaydı, Allahın peyğəmbərlər göndərməsinin mahiyyəti boşa çıxardı.

5. Hər insan bir şeyi etdikdə və ya o şeyi etməyi tərk etdikdə heç bir məcburiyyət olmadan o işi etdiyini hiss edir: ayağa qalxır, oturur, gedir, gəlir, yola çıxır və ya çıxmır. Bunların hamısını öz iradəsi ilə edir və heç kəsin onu bu işi etməyə məcbur etdiyini hiss etmir. Əksinə bir şeyi öz iradə və seçimi ilə edən kimsəni məcbur edilən kimsədən çox rahatlıqla ayırd edə bilir. Eynilə dinimiz də bu ikisi arasında hikmətli bir fərq qoymuşdur. Necə ki, Allah *subhənəhu və təalə* Öz haqqının toxunulmasına baxmayaraq bir kimsəni başqasının məcburiyyəti ilə edilən hərəkətlərdə məsul saymır.[96]

Biz,

Allahın qədərini bəhanə gətirən günahkarın üsyanında heç bir həqiqətin olmadığına iman edirik. Çünki, günah edən kimsə Allahın onun haqqında nə təqdir etdiyini bilmədən öz istəyilə günah edir. Buna görə bir kimsə, Allahın onun haqqında nə təqdir etdiyini, ancaq hadisə baş verdikdən sonra bilir. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Heç kəs sabah nə qazanacağını bilə–bilməz; heç kəs harada öləcəyini də bilməz». (Loğman 34).***

İnsanın bir işi etdikdən sonra bilmədiyi bir şeyi bəhanə gətirməsi doğru ola bilərmi? Allah *subhənəhu və təalə* bu bəhanəni batil edərək belə buyurur: ***«Müşriklər deyəcəklər: «Allah istəsəydi, nə biz, nə də atalarımız*** *(Ona)* ***şərik qoşar, nə də biz bir şeyi haram edə bilərdik». Onlardan əvvəlkilər də*** *(öz Peyğəmbərlərini)* ***beləcə yalançı hesab etmişdilər. Axırda əzabımızı daddılar. De: «Bizə göstərə biləcəyiniz bir***

---

[96] Qurani Kərimdə olan dəlil üçün baxın: Nəhl 106.

***bilginizmi var? Siz ancaq zənnə qapılır və anecaq yalan danışırsınız». (Ənam 148).***

Qədəri bəhanə gətirib günah edənlərə deyirik ki; Allah *subhənəhu və təalə* sənin haqqında itaəti təqdir etdiyi halda nə üçün itaət etmədin? Çünki məlum olmadan əvvəl təqdir olunan şey bilinmədiyi üçün itaətlə günah arasında heç bir fərq yoxdur. Bu səbəblə Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* səhabələrə Allahın kimin cənnətə və kimin də cəhənnəmə düşəcəyini yazdığını xəbər verdikə, səhabələr ona: «Onda (Allaha) təvəkkül edib, əməl etməyi tərk edəkmi?» - dedilər. Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* isə onlara: «Xeyr! Əməl edin. Çünki hər kəs özü üçün təqdir olunanı etməyə asanlıq tapacaqdır»[97] - buyurdu.

Qədəri bəhanə gətirib günah edənə deyirik ki; tutaq ki, Məkkəyə getmək istəyirsən. Ora getmək üçün iki yolun olduğunu, düz söz danışan bir şəxsin sənə bu iki yoldan birinin qorxunc və çətin olduğunu, digərinin isə təhlükəsiz və rahat olduğunu söyləsə, sən ikinci yolu seçərsən. Mənim üçün bu yol təqdir edildi deyərək birinci yolu seçməyin mümkün deyildir. Belə etsən insanlar sənin dəli olduğunu deyərlər.

Həmçinin, qədəri bəhanə gətirib günah edənə deyirik ki; sənə iki vəzifə təqdim edilsə və birinin məvacibi digərindən daha yüksək olsa, təbii ki sən məvacibi daha yüksək olan vəzifəni seçərsən. Onda necə olur ki, axirətlə bağlı əməldə özünə ən alçaq bir işi rəva bilib, sonra da qədəri bəhanə göstərərək taleyinə etiraz edirsən?!

Başqa bir misal; xəstələndikdə müalicə olunmaq üçün hər həkimin qapısını döyürsən. Bədənindəki ağrılara, cərrahiyyə əməliyyatına və acı dərmanlara dözürsən, amma qəlbinin xəstəliyi olan günahlara, iman zəifliyinə qarşı bir çarə axtarmırsan.

Biz,

Mərhəmət və hikmətinin kamilliyinə görə pisliyin Allaha aid edilməyəcəyinə iman edirik. Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* bu haqda belə buyurur: «(Allahım!) Şər (pislik) Sənə aid edilməz!»[98]

Hətta Allahın təqdir etdiyi hər hökmdə belə zərrə qədər şər yoxdur. Çünki bu hökm, Allahın mərhəmət və hikmətindən irəli gəlir. Şər, Allahın təqdir etdiyi şeylərin nəticəsində olur.

---

[97] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 1/82, 129, 132, 140; Buxari 4945-4947, 4949, 6217, 6605, 7552; Muslim 2647-2649; Tirmizi 2136, 3344; Əbu Davud 4694; İbn Macə 78.

[98] Sünnədə olan dəlillər üçün baxın: Muslim 771; Əbu Davud 760; Tirmizi 3422; Tayəlisi 152.

Necə ki, Peyğəmbər *salləllahu aleyhi və alihi və səlləm* (nəvəsi) Həsənə - *Allah ondan razı olsun* - qunut duasını öyrədərkən belə buyurmuşdur: *«(Allahım! Haqqımda)* ***verdiyin hökmünün şərindən məni qoru!»***[99]

Hədisdə olduğu kimi, şər Allaha deyil, Allahın təqdir etdiyi şeyə bağlıdır. Bununla belə şər, hər zaman təqdir edilən şeylərlə birlikdə şər deyildir. Əgər bir tərəfdən şərdirsə, digər tərəfdən xeyir ola bilər. Misal olaraq; yer üzündə quraqlıq, xəstəlik, kasıblıq və qorxu kimi hadisələrin ortaya çıxması ilə sabitliyin pozulması bir tərəfdən şərdirsə, digər tərəfdən xeyirdir. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«İnsanların öz əlləri ilə etdikləri əməllərin nəticəsi olaraq quruda və dənizdə fəsad törəyir ki,*** *(Allah)* ***onlara, etdiklərinin bir qismini daddırsın. Bəlkə, onlar*** *(haqqa)* ***qayıdalar». (Rum 41).***

Həd cəzasının tətbiqi - oğrunun əlinin kəsilməsi[100] və ya zina edən evli kişi və ya qadının rəcm edilməsi/daşa basılaraq öldürülməsi[101] əli kəsilən və ya öldürülən kimsəyə görə şərdir. Ancaq digər tərəfdən o ikisi üçün xeyirdir. Çünki həd cəzasının tətbiqi, onların günahlarına kəffarədir/əvəzdir. Onlara eyni anda həm dünya, həm də axirət əzabı tətbiq oluna bilməz/yəni, onların bu cəzalara məruz qalması Qiyamət günü həmin günahlara görə cəza çəkməyin qarşısını alır. Digər tərəfdən həd cəzasının tətbiqi ilə mallar, namuslar və nəsillər qorunmuş olur ki, bu da fərd və cəmiyyət üçün xeyir sayılır.

---

[99] Sünnədə olan dəlillər üçün baxın: Əhməd 1/199, 200; Əbu Davud 1425; Tirmizi 464; Nəsai 1746; İbn Macə 1178; Darimi 1591-1593.

[100] Qurani Kərimdə olan dəlillər üçün baxın: Maidə 38. Sünnədə olan dəlillər üçün baxın: Buxari 6783; Muslim 1684-1689.

[101] Sünnədə olan dəlillər üçün baxın: Buxari 5270-5272, 6812-6816, 6819, 6820, 6824,6830, 6848, 7167, 7168; Muslim 1691-1702, .

# YEDDİNCİ HİSSƏ

## BUNLARA İMANIN FAYDALARI

Böyük əsasları özündə birləşdirən bu pak iman ona inananlar üçün əhəmiyyətli faydalar bəxş edir.

***ALLAHA İMAN ETMƏYİN FAYDALARI:***

Allaha, gözəl adlarına və uca sifətlərinə iman edirik; əmrlərini yerinə yetirmək və qadağalarından çəkinməyə görə bir bəndəyə Allah sevgisi və Allahı ucaltma duyğusu verir. Allahın əmrini yerinə yetirmək və qadağalarından da çəkinməklə fərd və cəmiyyəti dünya və axirət səadətinə çatdırır. Allah *subhənəhu və təalə* bu haqda belə buyurur: ***«Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq». (Nəhl 97).***

***MƏLƏKLƏRƏ İMAN ETMƏYİN FAYDALARI:***

1. Cinləri və insanları yaradanın əzəmətini, qüdrət və hökmranlığını anlamağa kömək edir.

2. Qullarına verdiyi dəyərə görə Allaha layiqincə şükür etməyə kömək edir. Belə ki, Allah *subhənəhu və təalə* bəndələrini qorumaq, əməllərini yazmaq və onların mənfəətləri üçün bir sıra mələklər təhkim etmişdir.

3. Allaha ən gözəl bir şəkildə ibadət etdiklərinə və Allahdan möminlər üçün bağışlanma dilədiklərinə görə mələkləri sevməyə yönəldir.

***KİTABLARA İMAN ETMƏYİN FAYDALARI:***

1. Allahın bəndələrinə olan mərhəməti və onlara verdiyi dəyəri bilməyi təmin edir. Belə ki, Allah *subhənəhu və təalə* hər qövmə doğru yolu tapmaları üçün bir kitab göndərib.

2. Allahın hikmətinin təzahürü olaraq, bu kitablarda hər ümmət üçün o ümmətə uyğun olanı din etmişdir. Bu kitabların sonuncusu Qurani-Kərim, hər zaman və məkana uyğun, Qiyamətə qədər bütün yaradılmışlar üçün ən uyğun olan kitabdır.

3. Allahın verdiyi bu nemətinə şükür etməyi təmin edir.

***PEYĞƏMBƏRLƏRƏ İMAN ETMƏYİN FAYDALARI:***

1. Allahın bəndələrinə olan mərhəməti və onlara verdiyi dəyəri başa düşməyə kömək edir. Belə ki, Allah *subhənəhu və təalə* insanlara doğru yolu göstərmək və onları o yola çağırmaq üçün hər qövmə bir peyğəmbər göndərmişdir.

2. Allahın bu böyük nemətinə şükür etməyi anlamağa kömək edir.

3. Peyğəmbərləri sevməyi, onları layiq olduqları şəkildə tərif etməyi təmin edir. Çünki peyğəmbərlər, Allahın elçiləri və seçilmiş bəndələridir. Peyğəmbərlər, Allaha ibadət edən, Onun elçilik vəzifəsini təbliğ edən, Allahın qullarına nəsihət edən və Onun uğrunda əziyyətlərə səbr edən şəxslərdir.

***AXİRƏT GÜNÜNƏ İMAN ETMƏYİN FAYDALARI:***

1. Axirət gününün savabını ümid edərək Allaha ibadət etməyə və o günün əzabından qorxaraq günah etməkdən çəkinməyə təşviq edir.

2. Dünya nemətlərini ümid edib, amma əldə etməyən möminləri, axirət nemətləri və savabını əldə edəcəyi ilə təsəlli edir.

***QƏZA VƏ QƏDƏRƏ İMAN ETMƏYİN FAYDALARI:***

1. Bir şeyi edərkən səbəbləri götürməkdə Allaha güvənməyə kömək edir. Çünki həm fel/hərəkət, əməl, həm də nəticəsi Allahın qəza və qədəri ilə olur.

2. Buna inanan bir nəfs həm rahat olur, həm də qəlbi sakit və əmin olur. Çünki baş verənlərin Allahın qəza və qədəri ilə olduğunu və istənilən arzuolunmaz vəziyyətin qaçılmaz olduğunu bilir. Belə nəfs rahatlıq tapır, qəlbi sakit olur və Rəbbinin qəzasına razı olur. Qədərə inanan kimsədən daha gözəl həyat sürən, nəfsi daha rahat, qəlbi daha əmin və sakit olan heç kəs yoxdur.

3. Qəza və qədərə iman, arzuolunan bir şey olduqda insanın özünü bəyənməkdən xilas olmasını təmin edir. Çünki Allahın təqdir etdiyi səbəblərdən olan xeyir və uğurun həyata keçməsi bir nemətdir. Ona görə bu nemətin əvəzində Allaha şükür edir və özünü bəyənməyi tərk edir.

4. Qəza və qədərə iman, arzuolunan bir şeyin əldə edilməməsi və ya arzuolunmayan bir şeyin baş verməsi halında həyəcan və sıxıntıdan xilas olmasını təmin edir. Çünki bu vəziyyət, göylərin və yerin hökmü əlində olan Allahın qəzası ilə olmuşdur. Bunun baş verməsi qaçılmazdır. Beləliklə də bu vəziyyətə səbr edir və savabını Allahdan umur.

Allah *subhənəhu və təalə* bu hala işarə edərək belə buyurur: ***«Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda*** *(müəyyən edilmiş)* ***olmasın. Şübhəsiz ki, bu Allah üçün çox asandır!*** *(Allah bunu)* ***əlinizdən çıxana kədərlənməyəsiniz və Onun sizə verdiyinə*** *(həddindən artıq)* ***sevinməyəsiniz deyə*** *(belə izah edir)****. Allah heç bir özündən razını, özünü öyəni sevmir». (Hədid 22 - 23).***

Allahdan bizi bu əqidə üzrə sabit etməsini, onun faydalarından bəhrələnməyi, bizə lütf və ehsanından verməsini, bizi haqq yola yönəltdikdən sonra qəlblərimizi imandan üz döndərməməyi və bizə

mərhəmətini bəxş etməsini diləyirik. Şübhəsiz ki, O, bəndələrinə əvəzsiz və bol verəndir. Həmd, aləmlərin Rəbbi Allahadır!

Allahın salavatı və salamı, Peyğəmbərimiz Muhəmmədə, ailəsinə, səhabələrinə və onlara ən gözəl şəkildə tabe olanların üzərinə olsun! (Amin!)

***Muhəmməd bin Saleh əl - Useymin***
***30 Şəvval 1404 H***

# MÜNDƏRİCAT


Ön söz 3
Müqəddimə 5
Ön söz 6
Əqidəmiz 8
Birinci hissə: Allaha iman 18
İkinci hissə: Mələklərə iman 20
Üçüncü hissə: Kitablara iman 23
Dördüncü hissə: Peyğəmbərlərə iman 25
Beşinci hissə: Axirət gününə iman 30
Altıncı hissə: Qəza və Qədərə iman 36
Yeddinci hissə: Buna imanın faydaları 41